DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 07 (369) / İYUL 2022-Cİ İL



... son vaxtlar Ermənistan rəhbərliyi yenə də hansısa status haqqında danışmağa başlayıb. Halbuki, müharibəyə son qoyulanda, Ermənistan kapitulyasiya aktına məcburən imza atanda bizim - Azərbaycan, Rusiya, Ermənistanın rəhbərləri arasında şifahi razılaşma olmuşdur ki, status məsələsinə toxunulmur. Ermənistan müəyyən müddət buna əməl edirdi. Ancaq son zamanlar artıq bu, adi hala çevrilib. Gah onların baş naziri, gah xarici işlər naziri Qarabağın statusundan danışırlar. Status hara gedib və statusa nə olub, mən müharibədən sonra demişəm, təkrarlamaq istəmirəm. Əgər Ermənistanda bunu kimsə unudubsa, təkrarlaya bilərəm. Amma hesab edirəm ki, hələlik buna ehtiyac yoxdur. Ona görə status haqqında danışmaq Ermənistan üçün hesab edirəm ki, çox təhlükəli məsələdir. Çünki biz də status haqqında danışa bilərik, Zəngəzur üçün status tələb edə bilərik. O Zəngəzur ki, 1920-ci ilin noyabrında bizdən qoparıldı. Biz ki, danışmırıq, amma danışa bilərik, baxaq görək nəticəsi nə olacaq. Buna oxşar mənfi məqamlar çoxdur. Yenə də ölmüş Minsk qrupunu diriltmək cəhdləri var. İndi Minsk qrupu faktiki olaraq səhnədən gedib. Biz - bu prosesin iştirakçısı olan ölkə deyirik ki, Minsk qrupuna ehtiyac yoxdur, 28 il heç bir nəticə hasil etməyən qrupa ehtiyac yoxdur. Bunu biz deyirik. Minsk qrupu həmsədrləri arasında yumşaq desək, soyuq müharibə gedir. Faktiki olaraq özləri etiraf edirlər ki, Minsk qrupu qeyri-funksionaldır. Rusiya tərəfi deyir ki, Minsk qrupu artıq fəaliyyətsizdir və digər həmsədrlər bu instituta son qoyub. Ermənistan tərəfi yenə də, hər dəqiqəbaşı Minsk qrupu belə gəldi, Minsk qrupu belə getdi deyir. Bu, nə deməkdir? Sadəcə olaraq, biz yenə də bunun arxasında ölkəmizə qarşı ərazi iddiası görürük. Bir tərəfdən, Ermənistan bizim beş prinsipimizi qəbul edir, bunu etiraf edir - onların arasında ölkələrin ərazi bütövlüyünün qarşılıqlı tanınması, bir-birinə qarşı ərazi iddialarından əl çəkilməsi və digər müddəalar var - digər tərəfdən, Minsk qrupu elə bil, nə iləsə məşğul olmalıdır. Onda sual olunur: Nə ilə məşğul olmalıdır? Qarabağ münaqişəsi həll olunub, Qarabağ mövzusu bağlanıb. Qarabağ Azərbaycandır! Bunu mən demişəm və haqlı olaraq demişəm, indi bunu hamı deyir. O cümlədən Ermənistan deyir - öz xoşu ilə yox, məcburən. Bu məsələ ilə bağlı müzakirə apardığımız bütün ölkələr, təşkilatlar deyir.

Ona görə, bilirsiniz, bax, bu mənfi meyillər güclənir. Bütün məsələlərlə bağlı, məsələnin həlli üçün, yaxud da düzgün təhlil aparmaq üçün gərək sən o meyilləri düzgün seçəsən. Hələ ki, bu, hansısa bir ciddi fəsada çevrilməyib. Amma əgər bu zərərli meyillərin qarşısı alınmasa, bir gün bunun fəsadı ola bilər. Biz bunu istəmirik, biz sülh istəyirik. Biz müharibə istəmirik, heç vaxt da istəməmişik. Nəyi etmişiksə, Azərbaycan ərazisində etmişik, özü də elə etmişik ki, hər kəs bizim hərbi əməliyyatımıza həsəd apara bilər. Ancaq bu meyili görməmək də mümkün deyil. Ona görə biz bunu görürük, təsbit edirik, xəbərdarlıq edirik. Hərə də bizim xəbərdarlığımızdan, necə deyərlər, öz payını alsın.

**Prezident İlham Əliyev**

Bu ilin altı ayının yekunlarına həsr olunan müşavirəki nitqindən
15 iyul 2022-ci il

## DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ LƏNKƏRANDA VƏTƏNDAŞLARI QƏBUL EDƏCƏK

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı avqustun 4-də Lerik və Astara rayonları, eləcə də Lənkəran şəhərindən olan vətəndaşları qəbul edəcək. Qəbul Lənkəran şəhərində yerləşən Heydər Əliyev Mərkəzində saat 11:00-da keçiriləcək.

Komitənin fəaliyyət istiqamətlərinə uyğun olaraq qəbula gəlmək istəyən vətəndaşlardan Dövlət Komitəsinin Lənkəran bölgəsi üzrə şöbəsinə müraciət etmələri xahiş olunur.

DQİDK-nın bölgə şöbə müdiri:
Qağayı Məmmədov
Əlaqə vasitələri:
(050) 380 27 43
(025) 255 39 84
dk-lenkeran@scwra.gov.az

# QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK



**Hörmətli həmvətənlər!**

Sizi və Azərbaycandan kənarda yaşayan bütün soydaşlarımızı İslam dünyasının birlik, bərabərlik və qardaşlıq rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Qurban bayramı İslam dininin bəşəriyyətə mənəvi-əxlaqi qurtuluş yolu kimi göndərilməsi ilə əlamətdardır və müsəlmanların Allah sevgisini, haqq-ədalət naminə hər cür fədakarlığa hazır olduqlarını təcəssüm etdirir.

Azərbaycan xalqı əsrlər boyu tarixi köklərinə və adət-ənənələrinə bağlılığı ilə seçilmiş, ən mürəkkəb dövrlərdə belə, öz milli-mədəni dəyərlərini qoruyub saxlamışdır. Müsəlman aləmi ilə mənəvi həmrəyliyimizi nümayiş etdirən dini bayramlar, o cümlədən Qurban mərasimləri hər il ölkəmizdə böyük təntənə və ruh yüksəkliyi ilə qeyd olunur, Allahın adına qurbanlar kəsilir, dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir.

Azərbaycanın müstəqilliyi uğrunda və əzəli torpaqlarımızın işğaldan azad olunmasında canlarını fəda edən qəhrəman şəhidlərimizin ölməz xatirəsini bir daha dərin ehtiramla yad edir, onlara Uca Yaradandan rəhmət, yaxınlarına səbir diləyirəm.

Əziz bacı və qardaşlarım!

Ümidvaram ki, etdiyiniz dua və niyyətlər Tanrı dərgahında qəbul olunacaq, bu mübarək bayram da xalqımıza xas xeyirxahlığın, şəfqət və mərhəmətin təntənəsinə çevrilərək, cəmiyyətimizdə milli-mənəvi həmrəylik ovqatını daha da gücləndirəcəkdir.

Qoy müqəddəs Qurban bayramı ailələrinizə firavanlıq, süfrələrinizə xeyir-bərəkət gətirsin.

Bayramınız mübarək olsun!

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 7 iyul 2022-ci il

# DÖVLƏT KOMİTƏSİNDƏ MÜŞAVİRƏ KEÇİRİLİB

İyulun 28-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) Məhərrəm ayının başlanması ilə bağlı müşavirə keçirilib. Müşavirədə DQİDK-nın sədr müavinləri, Mərkəzi Aparat və bölgə şöbələrinin müdirləri iştirak ediblər.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ölkədəki dini durum, gündəlikdəki məsələlər barədə ətraflı məlumat verərək, Məhərrəm ayının başlanması ilə əlaqədar DQİDK-nın üzərinə düşən vəzifələrə toxunub, bununla əlaqədar Mərkəzi Aparat və bölgə şöbələrinin iş fəaliyyətlərini daha da gücləndirməli olduğunu deyib. Məscidlərdə və digər ibadət yerlərində dini mərasimlərin icrası zamanı Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurasının verəcəyi fətvanın tələblərinə ciddi riayət olunmasının vacibliyini diqqətə çatdıran M.Qurbanlı dini mərasimlərin mahiyyətinə uyğun, xurafat elementlərindən uzaq təşkil edilməsini xüsusi olaraq vurğulayıb.



“Dini etiqad azadlığı haqqında” Qanuna bir sıra dəyişikliklərin edilməsinin qarşımıza ciddi vəzifələr qoyduğunu da bildirən Komitə sədri İslam dininə aid ibadət yerlərində (məscidlər) vakant vəzifələrin tutulması üçün elan edilən sənəd qəbulunun artıq yekunlaşdığını və avqust ayının 2-dən etibarən müsahibənin başlayacağını qeyd edib. Din pərdəsi altında İslamı təhrif edən, xurafatı, cəhaləti yayan, insanlar arasında ixtilafa səbəb olacaq çağırışlar edən, məzhəb ayrı-seçkiliyi salan qüvvələrə qarşı ilahiyyatçılarımızın, dini icmalarımızın üzərinə də böyük məsuliyyət düşdüyünü nəzərə çatdıran M.Qurbanlı din xadimlərinin Vətənə, milli-mənəvi dəyərlərimizə, o cümlədən azərbaycançılıq ideologiyasına bağlı olmalarının önəmini vurğulayıb. Müasir dövrümüzün tələblərinə cavab verən, zəngin dünyagörüşünə, dərin dini və dünyəvi biliklərə, güclü şəxsiyyətə malik mütəxəssislərin yetişdirilməsində Azərbaycan İlahiyyat İnstitutunun roluna diqqət çəkib.

DQİDK sədrinin müavini Səyavuş Heydərov və bölgə şöbə müdirləri gündəlikdəki məsələlərlə bağlı fikirlərini bölüşdükdən sonra müvafiq tapşırıq və tövsiyələr verilib.

# XII BEYNƏLXALQ MULTİKULTURALİZM YAY MƏKTƏBİ LAYİHƏSİNİN İŞTİRAKÇILARI DÖVLƏT KOMİTƏSİNDƏ OLUBLAR

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) tərəfindən təşkil olunan “Multikulturalizm siyasəti qlobal və regional sülhün açarı kimi” adlı XII Beynəlxalq Multikulturalizm Yay Məktəbinin iştirakçıları iyulun 29-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) oldular.

Görüşdə Yay Məktəbinin tələbələrini salamlayan Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı gənclərə ölkəmizdəki nümunəvi tolerantlıq mühiti və multikultural dəyərlərə əsaslanan dövlət-din münasibətləri, Komitənin fəaliyyət istiqamətləri, həmçinin Azərbaycanda müxtəlif dinlər və konfessiyalar arasındakı harmoniya barədə məlumat verib.

Bildirilib ki, dini tolerantlıq dövlətin və cəmiyyətin inkişafında mühüm amildir. Tarixən çoxmədəniyyətli və tolerant ənənələrlə zəngin cəmiyyəti olan Azərbaycan dövləti bu ənənələri möhkəmləndirmək siyasətini həyata keçirir. Müxtəlif dinlərə aid icmalar cəmiyyətimizin ayrılmaz hissəsidir, onlar ölkəmizin ictimai-siyasi həyatında fəal rol oynayırlar. Bütün dinlərə məxsus dini ibadətgahlar dövlət tərəfindən nəinki qorunur, həmçinin təmir və bərpa olunur. Prezident İlham Əliyevin təşəbbüsü olan “Bakı Prosesi” çərçivəsində Azərbaycanın mədəniyyət və dini tolerantlıq sahəsində ev sahibliyi etdiyi beynəlxalq tədbirlər ölkəmizin dinlərarası dialoq və multikulturalizm kimi dəyərlərin təbliğinə verdiyi önəmi bir daha sübut edir.



Görüş zamanı xalqımızın 44 günlük Vətən müharibəsindəki parlaq Qələbəsinə toxunan M.Qurbanlı erməni faşizminin tarixi abidələrə qarşı münasibətdə də özünü qabarıq şəkildə göstərdiyini diqqətə çatdırıb. O, 30 illik işğaldan azad olunan ərazilərimizdə ermənilərin dağıtdığı dini abidələrin Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən bərpa olunması istiqamətində görülən işlərdən danışıb.

Sonda iştirakçıların suallarını cavablandıran Komitə sədri dəyərli ənənəyə çevrilən beynəlxalq multikulturalizm yay və qış məktəblərinin əhəmiyyətinə toxunaraq layihənin gənclərin ölkəmizdəki nümunəvi tolerantlıq mühitinin əyani şahidi olmalarına şərait yaratdığını bildirib.

# AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTUNDA "MƏZUN GÜNÜ" TƏDBİRİ KEÇİRİLİB









Azərbaycan İlahiyyat İnstitutunda (AİI) "Məzun Günü" tədbiri keçirilib.

Öncə AİI-nin rəhbər heyəti və məzunları Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla anıb, məzarı önünə gül dəstələri qoyublar.

Sonra Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi anılıb.

Dövlət rəsmiləri və dini konfessiya nümayəndələrinin iştirak etdikləri sözügedən tədbirdə Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunması və bərpası uğrunda şəhid olanların ruhları birdəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Daha sonra AİI-nin tələbələri toplu şəkildə Qurani-Kərim oxuyublar.

Açılış nitqi ilə çıxış edən AİI-nin rektoru Aqil Şirinov ali təhsil müəssisəsi haqqında geniş məlumat verib. Bildirib ki, ilk məzun buraxılışı həyata keçirən AİI 2018-ci il Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli 3654 nömrəli Sərəncamına əsasən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradılıb: "İnstitutda bir fakültə (İlahiyyat fakültəsi) və üç kafedra (Dinşünaslıq, İslamşünaslıq, Dillər və ictimai fənlər kafedraları) mövcuddur. Hazırda fakültədə bakalavriat səviyyəsində 265, magistratura səviyyəsində 5, doktorantura səviyyəsində 3 tələbə təhsil alır.

AİI xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlığa xüsusi önəm verir. Ali təhsil müəssisəsinin hədəfi tədrisin müasir tələblər səviyyəsində qurulmasıdır. Bu məqsədlə AİI dünyanın qabaqcıl universitetlərinin təcrübəsindən yararlanır, həmçinin beynəlxalq əlaqələrini genişləndirir.

İnstitutda təkcə Quran, Hədis, Təfsir, Fiqh, Kəlam kimi İslam dininin tədrisinə dair ənənəvi fənlər deyil, eyni zamanda dinləri sosioloji, psixoloji, fəlsəfi və tarixi aspektlərdən tədqiq edən fənlər də tədris olunur.

Ali təhsil müəssisəsi xarici dillərin tədrisinə böyük əhəmiyyət verir. İnstitutda tələbələr ərəb, ingilis və ibri dillərini yüksək səviyyədə öyrənmək imkanına malikdirlər. Bütün xarici dillər peşəkar mütəxəssislər tərəfindən müasir metodlar əsasında 4 dil bacarığının – oxuma, dinləmə, danışma, yazma inkişafı istiqamətində tədris edilir. Dərslərdən əlavə, tələbələr üçün ödənişsiz ərəb və ingilis dili kursları təşkil olunur.

Tədbirdə Azərbaycan İlahiyyat İnstitutunun əməkdaşlıq etdiyi xarici ali təhsil müəssisələri rəhbərlərinin videotəbrikləri nümayiş etdirilib.

Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, t.e.d., prof. Fəzail İbrahimli İnstitutun məzunlarını təbrik edib. Bildirib ki, bir ali təhsilin xarici əlaqələrinin qurulması önəmlidir və Azərbaycan İlahiyyat İnstitutu bu vəzifənin öhdəsindən layiqincə gəlib.

Azərbaycanda mövcud tolerant mühitdən bəhs edən F.İbrahimli ölkəmizin dövlət-din münasibətlərinin dünyaya nümunə olduğunu bildirib.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, f.e.d. Mübariz Qurbanlı tədbir iştirakçılarını salamladıqdan sonra ölkəmizdə dövlət-din münasibətlərinin əsasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu və bu siyasətin Ümummilli Liderimizin layiqli varisi Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. O, eyni zamanda qeyd edib ki, Birinci vitse-prezident Mehriban xanım Əliyeva və onun rəhbəri olduğu Heydər Əliyev Fondu tərəfindən bu sahəyə xüsusi diqqət və qayğı göstərilir.

Prezident İlham Əliyevin İnstitutun yeni binasının açılışında şəxsən iştirak etməsinin din sahəsinə böyük diqqət və qayğının növbəti təzahürlərindən biri olduğunu qeyd edən Mübariz Qurbanlı məzunların ali təhsil ocağında aldıqları bilik və bacarıqlardan yüksək səviyyədə istifadə edərək, gələcək fəaliyyətləri dövründə ölkəmizin daha da inkişafına, dövlət-din münasibətlərinə öz töhfələrini verəcəklərinə inamını vurğulayıb. Məzunlara, müəllimlərə və tələbələrə gələcək fəaliyyətlərində yeni-yeni uğurlar arzulayıb.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini, f.f.d. Fuad Nurullayev Şeyxülislam Allahşükür Paşazadənin təbriklərini çatdırıb. F.Nurullayev bildirib ki, ilahiyyatçı olaraq ölkəsini mükəmməl təmsil etmə məsuliyyəti bugünkü məzunların üzərinə düşür. O bu məsuliyyətli sahədə məzunlara uğurlar arzulayıb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspora, multikulturalizm və dini məsələlər şöbəsinin sektor müdiri Müzəffər Talıblı məzunları təbrik edib. Bildirib ki, "Siz məzunlar öz sahəsinin peşəkar mütəxəssisləri olan müəllimlərinizdən aldıqlarınız biliklərlə dini-ideoloji sahədə mütəxəssis kimi yetişərək cəmiyyətə sağlam dini bilgilər verəcəksiniz".

Professor, ictimai-siyasi xadim, Əməkdar elm xadimi Şahlar Əsgərov AİI məzunlarının cəmiyyətdə milli-mənəvi dəyərlərin aşılanması istiqamətində xüsusi rol oynayacaqlarını bildirib. O, məzunlara uğurlar arzulayıb.

Millət vəkili, i.f.d. Ceyhun Məmmədov tədbir iştirakçılarını salamladıqdan sonra məzunları təbrik edib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin fəaliyyətini yüksək qiymətləndirən millət vəkili ali məkəbin ilk rektoru olaraq İnstitutun yaranması və fəaliyyətə başlaması barədə ətraflı danışıb. AİI-nin qısa zamanda yaranmasına baxmayaraq, ən mütəşəkkil təşkil olunmuş ali məktəblərdən birinə çevrildiyini vurğulayan Ceyhun Məmmədov məzunlara uğurlar arzulayıb və dövlətçilik prinsiplərini əsas tutaraq fəaliyyət göstərmələrini diləyib.

Millət vəkili, t.e.d., prof. Anar İsgəndərov məzunları təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb: "Əminik ki, AİI tələbələri olaraq ölkəmizin hər bir nöqtəsində dövlət-din münasibətlərinin tənzimlənməsi istiqamətində əlinizdən gələni əsirgəməyəcəksiniz".

Valideynlər adından çıxış edən AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, t.e.d. Vaqif Abışov məzunlara təbriklərini çatdırdıqdan sonra, Azərbaycan İlahiyyat İnstitutunun yaranmasının əhəmiyyətini vurğulayıb. Ölkəmizdə dövlət-din münasibətlərinin inkişafı baxımından İlahiyyat İnstitutundakı təhsilin önəmini qeyd edib, ali məktəbə gələcək fəaliyyətində uğurlar arzulayıb.

AİI-nin məzunları adından çıxış edən Fərid Qasımzadə bildirib ki, Azərbaycan İlahiyyat İnstitutunun missiyası İslam və digər səmavi dinlər haqqında dərin biliklərə yiyələnən, milli, dini və əxlaqi dəyərləri qorumaqla Azərbaycan xalqının milli və mədəni inkişafına töhfə verən kadrlar yetişdirməkdir. Eyni zamanda, mənəvi irsimiz olan İslam dininin təbliği, xurafat və mövhumatdan uzaq tutulması üçün din xadimlərinin yetişdirilməsi də məhz İnstitutun vizyonunu təşkil edir. O bildirib ki, "Harada olmağımızdan asılı olmayaraq, dəyişməyən bir şey ondan ibarətdir ki, biz İlahiyyat İnstitutunun məzunlarıyıq. Bu müəssisənin məzunuyuqsa, bu, artıq cəmiyyətin bizdən müəyyən və ciddi gözləntilərinin olması deməkdir".

Daha sonra Azərbaycan İlahiyyat İnstitutu məzunlarının iştirakı ilə hazırlanmış videoçarx nümayiş olunub.

Sonda institutun məzunları Tələbə Andını səsləndiriblər.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ ŞAMAXIDA VƏTƏNDAŞLARI QƏBUL EDİB





Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı iyulun 19-da Şamaxı, İsmayıllı, Qobustan, Ağsu rayonlarından olan vətəndaşların müraciətlərinə baxıb.

Qəbuldan öncə Komitə sədri Mübariz Qurbanlı və Şamaxı Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Hikmət Şikarov Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Qəbul zamanı Komitənin fəaliyyət istiqamətlərinə uyğun olan müraciətlər cavablandırılıb, qaldırılan məsələlərin həlli ilə əlaqədar bölgə şöbəsinə müvafiq göstərişlər verilib.

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR



İyulun 18-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Avropa Ravvinləri Konfransının icraçı direktoru Qadi Qroniçlə görüşüb.

Qonaqları salamlayan Dövlət Komitəsinin sədri Azərbaycanda mövcud olan multikulturalizm ənənələri, dinlərarası tolerantlıq və harmoniya haqqında məlumat verib. Bildirilib ki, ölkəmizdə dini və milli mənsubiyyətindən asılı olmayaraq, hər kəs eyni hüquqlara malikdir və insanlar öz dini etiqadlarını, adət-ənənələrini sərbəst şəkildə həyata keçirirlər. Azərbaycanda müxtəlif dini konfessiyalar arasında hökm sürən, qarşılıqlı hörmətə əsaslanan münasibətlərin daha da möhkəmlənməsi və inkişaf etdirilməsində Prezident İlham Əliyevin həyata keçirdiyi ardıcıl siyasət mühüm rol oynayır.

Azərbaycanlılar ilə yəhudilərin birgəyaşayış tarixinin yüzilliklərə söykəndiyini, ölkəmizdə yaşayan yəhudilərin respublikanın ictimai-siyasi həyatında aktiv fəaliyyət göstərdiyini vurğulayan M.Qurbanlı yəhudi dini icmalarına göstərilən diqqət və qayğıya toxunub. Fərqli mədəniyyətləri və dini irsi qoruyub saxlamağın dövlətin əsas prioritetlərindən biri olduğunu diqqətə çatdıran Komitə sədri Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun sinaqoqların təmir və bərpasına öz töhfəsini verdiyini qeyd edib. Hazırda ölkəmizdə yəhudilərə məxsus 7 sinaqoq və 8 dini icmanın fəaliyyət göstərdiyini, yəhudi dini icmalarına hər il dövlət büdcəsindən maliyyə yardımı ayrıldığını bildirib.

Ölkəmizə səfərindən məmnunluqla danışan Qadi Qroniç qeyd edib ki, Azərbaycan dünyada dini etiqad azadlığının təmin edildiyi azasaylı ölkələrdən biridir. Respublikamızda dini etiqad azadlığına geniş imkanlar yaradılıb və Azərbaycan bu aspektdən dünyanın bir çox dövlət və cəmiyyətlərinə nümunə ola biləcək ölkədir. Avropada multikulturalizm ideyasında məqsəd müəyyənləşdirilsə də, ona yönəlik yollar düzgün təyin edilməyib. Bu baxımdan müasir dünyamızda mədəniyyətlərarası dialoqun təbliğinin, Azərbaycanın simasında dini tolerantlıq və birgəyaşayışın unikal modelinin təşviqi mühüm əhəmiyyət kəsb edir.

Səmimi şəraitdə keçən görüş zamanı müvafiq qurumlar arasında qarşılıqlı əlaqələrin qurulması və birgə tədbirlərin keçirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.

***

İyulun 21-də isə DQİDK-nın sədr müavini Səyavuş Heydərov ABŞ-nin Cənubi Karolina ştatından olan nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan S.Heydərov ölkəmizdə mövcud olan nümunəvi dövlət-din münasibətləri, Konstitusiyada təsbit edilmiş vicdan azadlığı, dinlərarası harmoniya, ayrı-ayrı dinlər və konfessiyalar arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq münasibətləri haqqında, eləcə də bu münasibətlərin tənzimlənməsi sahəsində fəaliyyət göstərən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin fəaliyyəti barədə məlumat verib.



Sədr müavini bildirib ki, dövlətin din siyasətində dini etiqad azadlığının təmin edilməsi, eləcə də dini mövqedən yönələn təhdidlərin qarşısının alınması prioritet istiqamətlərdəndir. Xalqımızın öz tarixi köklərinə bağlılığı, milli-mənəvi, tolerant dəyərlərinə sadiq olması respublikamızın mövcud xətt üzrə dövlət siyasəti ilə tam bir vəhdət təşkil etməkdədir. Bu gün Azərbaycanın dövlət siyasətinə çevrilən multikulturalizm anlayışı təkcə ayrı-ayrı ölkələrdə deyil, bütövlükdə dünyada mədəni müxtəlifliyin qorunmasına və bu vasitə ilə ümumbəşəri harmoniya yaradılmasına, xalqların, fərqli din və mədəniyyətlərin qarşılıqlı faydalı əməkdaşlığına yönəldilmiş nəzəriyyədir. Dünyada multikulturalizm anlayışının dəyərdən düşdüyü və öz effektivliyini itirdiyi barədə fikirlərin formalaşdığı bir dövrdə Azərbaycan multikulturalizmin alternativsiz bir anlayış olduğunu əyani şəkildə sübut etməkdədir.

Azərbaycan nümayəndə heyətinin ötən ay Amerika Birləşmiş Ştatlarına səfərini xatırladan S.Heydərov qonağı Dövlət Komitəsinin cari ilin oktyabr ayında Vaşinqtonda keçirəcəyi beynəlxalq konfransa dəvət edib.

Ölkəmizə növbəti dəfə səfər etməsindən məmnunluğunu ifadə edən Kolumbiya Beynəlxalq Universitetinin rektoru və Xristian təmayüllü "Crossover Global" təşkilatının təsisçisi doktor Bill Cons Azərbaycanda müxtəlif dinlərə məxsus icmalara yüksək diqqət və qayğını, müxtəlif dini konfessiya nümayəndələrinə dövlət tərəfindən həm mənəvi, həm də maddi dəstək verilməsini unikal nümunə kimi dəyərləndirib. Qonaq ölkəmizin multikulturalizm, tolerantlıq ənənələrinə xüsusi önəm verən az sayda ölkələrdən biri olduğunu vurğulayıb.

Qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə də fikir mübadiləsinin aparıldığı görüşün sonunda Dövlət Komitəsinin ingilis dilində nəşr etdirdiyi, ölkəmizdəki dini tolerantlıq mühitindən bəhs edən kitablar qonaqlara təqdim olunub.

# DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ KOLLEGİYASININ İCLASI KEÇİRİLİB

İyulun 6-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Kollegiyasının bu ilin 6 ayının yekunları və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Komitə sədrinin birinci müavini Səyyad Salahlı iclası giriş sözü ilə açaraq, 2022-ci ilin birinci yarısında dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində həyata keçirilən önəmli işlərə diqqət çəkib. Bildirilib ki, milli birliyin və vətəndaş həmrəyliyinin təmin olunması ilə bağlı Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs hazırda Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Tarixi-dini abidələrimizin, o cümlədən məscid, kilsə, sinaqoqların bərpası və yenidən qurulması, yeni ibadət evlərinin inşası Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin tərkib hissəsidir. Ölkəmizdə dini abidə və məbədlərə göstərilən xüsusi diqqət və qayğının davamı olaraq cari ildə də Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Bakının Suraxanı rayonu Yeni Günəşli qəsəbəsində "Xanım Fatimeyi Zəhra" məscidinin yeni binasının açılışında iştirak ediblər, habelə Heydər Əliyev Fondu tərəfindən inşa olunan Zəngilan məscidində tikinti işlərinin gedişi ilə tanış olublar. Dövlət-din münasibətlərinin davamlı olaraq təkmilləşdirilməsi, tolerantlıq və mədəni müxtəliflik ənənələrinin təbliği və təşviqi, cəmiyyətdə milli-mənəvi həmrəyliyin gücləndirilməsi və qarşılıqlı anlaşma münasibətlərinin ahəngdar inkişafı istiqamətində ölkədə mövcud dini konfessiyaların fəaliyyətini dəstəkləmək məqsədilə ölkə başçısı dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında Sərəncam imzalayıb. Eyni zamanda "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanından irəli gələn məsələlərin həlli məqsədilə Dövlət Komitəsi tərəfindən "İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi Qaydası" hazırlanıb. Sədrin birinci müavini Prezident cənab İlham Əliyevin ölkəmizdə vətəndaşların dini etiqad, vicdan azadlıqlarının təmin olunması, milli-mənəvi dəyərlərin qorunması, təbliği və təşviqi işinin genişləndirilməsi, eyni zamanda ölkə vətəndaşlarının dini ali təhsil hüquqlarının bərqərar olmasına və bu sahədə milli kadrların hazırlanmasına verilən önəmin bariz göstəricisi kimi Azərbaycan İlahiyyat İnstitutunun, eləcə də Mənəvi Dəyərlərin Təbliği Fondunun müasir standartlara cavab verən yeni binasının açılışında iştirakını xüsusilə vurğulayıb. Şanlı qələbənin əldə edilməsi nəticəsində Azərbaycanın işğaldan azad olunmuş ərazilərində geniş quruculuq işlərinin başlandığını, o cümlədən erməni vandalizminə məruz qalmış tarixi-dini abidələrin bərpası və yenidən qurulması sahəsində mühüm addımların atıldığını qeyd edən S.Salahlı qələbəmizin rəmzi olan Şuşa şəhərinin Azərbaycan xalqı üçün yüksək mədəni-mənəvi dəyəri nəzərə alınaraq, elan edilən "Şuşa İli" çərçivəsində Dövlət Komitəsinin Tədbirlər Planında yer alan layihələrin həyata keçirildiyini vurğulayıb.



Dövlət Komitəsinin 2022-ci ilin I yarısında fəaliyyəti barədə çıxış edən Dini qurumlarla iş üzrə şöbənin müdiri Cahandar Əlifzadə bildirib ki, Komitə hesabat dövründə dini etiqad azadlığının həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılması, dini radikalizm və ekstremizmin, dini zəmində qarşıdurma və ayrı-seçkilik hallarının, digər mənfi təzahürlərin qarşısının alınması istiqamətində fəaliyyətini davam etdirib. Dini qurumların yenidən dövlət qeydiyyatına alınması prosesi başlayandan (01.09.2009-cu il) bugünədək 992 dini qurum dövlət qeydiyyatına alınıb. Hesabat dövründə ixtisaslaşdırılmış satış məntəqəsinin yaradılması ilə əlaqədar 1 müraciətə müsbət cavab verilib. Komitənin dinşünaslıq ekspertizasına daxil olmuş müraciətlər əsasında 5251 adda dini məzmunlu ədəbiyyata baxılıb, dini dözümsüzlüyü, ayrı-seçkiliyi və radikallığı təbliğ edən kitabların ölkəyə idxalının və yayılmasının qarşısı alınıb. Ölkədə nəşr olunmaq məqsədilə dinşünaslıq ekspertizasına təqdim edilən 108 adda dini ədəbiyyat ekspertizadan keçirilib, 178 adda (259100 ədəd) dini təyinatlı ədəbiyyata nəzarət markası verilib.

Milli-mənəvi və dini dəyərlərin, tolerant və multikultural ənənələrin qorunub saxlanılması, eləcə də dini radikalizm və ekstremizmlə mübarizə məqsədilə aparılan dini maarifləndirmə tədbirlərinə toxunan şöbə müdiri qeyd edib ki, Komitə tərəfindən müvafiq dövlət qurumları və Qafqaz Müsəlmanları İdarəsi ilə birlikdə sözügedən istiqamətlərdə ölkə vətəndaşlarının cəlb olunduğu 460-dan artıq tədbir təşkil edilib. Dini ekstremizmə qarşı mübarizə, dini etiqad azadlığının təmin edilməsi ilə bağlı Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları, Dövlət Sərhəd Xidməti, Ədliyyə Nazirliyinin Penitensiar Xidməti ilə hazırlanmış Tədbirlər Planları çərçivəsində 28 tədbir keçirilib. Eyni zamanda dini fanatizm, radikalizm və ekstremizmin qarşısının alınması istiqamətində preventiv xarakterli 60-a yaxın, tolerantlıq, multikulturalizm, dinlərarası və məzhəblərarası yaxınlaşma istiqamətində 15-dən artıq, erkən nikaha qarşı mübarizə çərçivəsində 6, habelə "İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi Qaydası" ilə bağlı dini qurumlar, eləcə də əhali arasında aparılan maarifləndirmə işi çərçivəsində 45 tədbir baş tutub.



Ölkəmizin nümunəvi tolerantlıq modeli və dini həmrəylik mühiti, eləcə də zəngin mənəvi-əxlaqi irsinin xaricdə təbliği, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində görülən işlər barədə də danışan C.Əlifzadə vurğulayıb ki, bu sahədə beynəlxalq konfranslar təşkil edilir, Komitə əməkdaşlarının xarici mətbuatda, eləcə də xarici internet resurslarında məqalələri yayımlanır. Həmçinin Komitə sədrinin müavini S.Nağıyevin rəhbərlik etdiyi nümayəndə heyətinin 6-10 iyunda Gürcüstana, 26 iyun-02 iyul tarixlərində isə sədr müavini Səyavuş Heydərovun rəhbərlik etdiyi heyətin ABŞ-nin paytaxtı Vaşinqton şəhərinə səfərləri çərçivəsində bir çox vacib məsələlər ətrafında fikir mübadilələri aparılıb.

Daha sonra çıxış edən Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova ölkədəki mövcud dini durum və sosial şəbəkələr üzərindən dini duruma neqativ təsirlər barədə məlumat verib. Bildirib ki, dünyəvilik, vicdan və dini etiqad azadlığı, dinlərin bərabərliyi kimi prinsiplərə əsaslanan dövlət siyasətinin sayəsində ölkəmizdə dini sabitlik günbəgün möhkəmlənir. Hazırda ölkəmizdə müxtəlif konfessiyalara məxsus dini ibadət yerləri sərbəst fəaliyyət göstərir. Müsəlman və qeyri-müsəlman dini icmaların fəaliyyətinə dövlət dəstəyinin göstərilməsi dini tolerantlığın inkişafına böyük töhfə verir. Bütün bunlara paralel olaraq regionda baş verən siyasi proseslərin izlənilməsi, həmin proseslərdə din amilinin rolu, din adı altında göstərilən fəaliyyətin ölkəmizə təsirləri və dindar kontingentin qeyd edilən məsələlərə münasibətinin öyrənilməsi daim diqqətdə saxlanılır. Habelə dini tolerantlıq ənənələrinin möhkəmləndirilməsi, dini icmalar arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi, eləcə də dini bayram və mərasimlərin mövcud qanunvericiliyin tələblərinə uyğun formada həyata keçirilməsinə nəzarətin təşkili istiqamətində tədbirlər davam etdirilir. Sosial şəbəkələrin dini duruma təsirinə toxunan şöbə müdiri qeyd edib ki, günümüzdə müxtəlif siyasi, etnik və dini məzmunlu saytların, sosial şəbəkələrin, videoportalların, internet televiziya kanallarının mövcudluğu, onların əksəriyyət üçün əlçatan olması ölkəmizin ictimai-siyasi, dini, mədəni həyatı və cəmiyyətin düşüncəsi, davranışı üzərində öz müsbət və mənfi təsirlərini göstərir. Dövlət və ictimai təhlükəsizlik, dini durum və mənəvi həyatımıza aid bir çox məsələlərlə bağlı təhdid doğuran tendensiyaları özündə ehtiva edən təbliğat internet resurslarının üzərindən aparılmaqdadır. Dövlət Komitəsi internet resurslarının, o cümlədən sosial şəbəkələrin üzərindən aparılan zərərli dini və dini-siyasi təbliğatın, ölkəmizdəki dini vəziyyətə, dövlət-din münasibətlərinə təsir edən mənfi amillərin yaratdığı mümkün təhdidlərin və başqa mövcud neqativ halların aşkar edilməsi, onların qarşısının alınması məqsədilə monitorinq həyata keçirməkdədir.

Azərbaycan İlahiyyat İnstitutunun (AİI) 2022-ci ildə fəaliyyəti barədə hesabatla çıxış edən rektor Aqil Şirinov bildirib ki, təhsil müəssisəsində 272 tələbə təhsil alır. İnstitut öz fəaliyyətində xarici ölkələrin müvafiq ali təhsil müəssisələri ilə əlaqələrin gücləndirilməsi, ikitərəfli əməkdaşlıq çərçivəsində birgə layihələrin həyata keçirilməsi, elm və təhsil sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, müəllim və tələbə mübadiləsi proqramlarının reallaşdırılmasına xüsusi önəm verir. Qazaxıstan Respublikasının "Nur-Mübarək" Misir İslam Mədəniyyəti Universiteti, Türkiyənin İstanbul "29 Mayıs" Universiteti, Özbəkistan Beynəlxalq İslam Akademiyası ilə mübadilə proqramları çərçivəsində tələbələrin təcrübə keçməsi təmin edilib.

davamı səh. 6

# DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ KOLLEGİYASININ İCLASI KEÇİRİLİB

əvvəli səh. 5



Aİİ ilə Türkiyənin Tekirdağ Namık Kemal Universiteti arasında “Mövlanə” mübadilə proqramı çərçivəsində Əməkdaşlıq Protokolu, habelə Muş Alparslan Universiteti ilə birgə elmi-pedaqoji və tədqiqat işlərinin aparılmasını nəzərdə tutan Əməkdaşlıq Protokolu imzalanıb. A.Şirinov hesabat dövründə institut əməkdaşları və professor-müəllim heyətinin respublika və beynəlxalq simpoziumlarda, elmi konfranslarda, treninqlərdə, təlimlərdə, tədbirlərdə və s. iştirakına şərait yaradıldığını da vurğulayıb.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov qeyd edib ki, hesabat dövrü ərzində Fond tərəfindən dini etiqad sahəsində işlər davam etdirilib, bir sıra İslam və qeyri-islam dini icmalarının maarifləndirici layihələrinə maddi dəstək göstərilib. Fondun təşkilatçılığı ilə Azərbaycanda fəaliyyət göstərən xristian dini icmalarının nümayəndələri Kəlbəcər rayonundakı "Xudavəng" məbədinə, Xocavənd rayonunun işğaldan azad olunmuş Hadrut qəsəbəsinə, Hünərli və Tuğ kəndlərinə səfər ediblər. Ramazan ayı çərçivəsində Fondun maliyyə dəstəyi ilə ölkəmizin bir sıra şəhər və rayonlarında iftar süfrələri təşkil edilib, bir sıra dini icmalar və ictimai birliklər ilə şəhidlərimizin xatirəsinə həsr olunan tədbirlər, film təqdimatları keçirilib. Fond “Oxu günü-8” kitab sərgi-festivalında, “Əsgərin kitab rəfi” aksiyasında iştirak edib, həmçinin mədəniyyətimizin və dəyərlərimizin daha geniş kütlələrə çatdırılması istiqamətində görülən işlərin davamı olaraq sosial şəbəkə istifadəçiləri arasında “Bizi ucaldan dəyərlər” adlı müsabiqə keçirib.

Daha sonra Dövlət Komitəsinin Lənkəran və Zaqatala bölgələri üzrə şöbə müdirləri Qağayı Məmmədov, İlqar Vəliyev şöbələrin əhatə etdiyi rayonlarda dövlət-din münasibətlərinin tənzimlənməsi, dövlətin dinlə bağlı siyasətinin həyata keçirilməsi sahəsindəki görülən işlər haqqında məruzə ilə çıxış ediblər. Eyni zamanda bölgədə həyata keçirilən maarifləndirici, təbliğat-təşviqat xarakterli tədbirlər barədə danışıblar.

İclasın sonunda 2022-ci ilin ikinci yarısında Komitə tərəfindən görüləcək işlər, gələcək hədəflər, o cümlədən, rəy və təkliflər nəzərdən keçirilib. Yekunda Aparat rəhbəri Amil Cavadov tərəfindən Kollegiyanın qərar layihəsi səsləndirilib və müzakirələrdən sonra qəbul edilib.

# AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ ABŞ-DƏ SƏFƏRDƏ OLUB





Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti 26 iyun-2 iyul tarixləri arasında ABŞ-də səfərdə olub.

Tərkibinə Azərbaycan Respublikasında Katolik kilsəsinin apostol prefekturası, Bakı şəhəri Azərbaycan Bibliya Cəmiyyəti Xristian dini icması, eləcə də Avropa yəhudiləri və Gürcü yəhudilərinin Bakı dini icmalarının rəhbər və təmsilçilərinin daxil olduğu nümayəndə heyəti səfər çərçivəsində bir sıra ikitərəfli görüşlər keçirib.

Nümayəndə heyətinin üzvləri Amerikada fəaliyyət göstərən “AJC”, “AIPAC”, “JCSEJ” və “B'nai B'rith” kimi nüfuzlu yəhudi təşkilatlarının təmsilçiləri, Senatın Təxsisatlar Komitəsinin və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Komissiyasının üzvü, senator Con Buzmanın Aparatının rəhbəri Toni-Mari Hiqins, Holokostun İnkarı və Antisemitizm Təşəbbüsünün beynəlxalq Maarifləndirmə təşkilatı üzrə direktoru Tad Stanke, eləcə də qurumun ərəb auditoriyası üzrə mütəxəssisi Mina Abdelmalak və Etika, Din və Holokost Proqramının Koordinatoru, o cümlədən Senatın Xarici Əlaqələr Komitəsinin aparıcı üzvü və qurumun Avropada Əməkdaşlıq və Təhlükəsizlik Komissiyasının sədri, həmçinin senator Benjamin Kardinin xarici siyasət məsələləri üzrə baş müşaviri Tomas Melia, Avropa Ravvinləri Konfransının icraçı direktoru Qadi Qroniç, Türkiyə Respublikasının ABŞ-dəki səfiri cənab Həsən Murad Mərcan, ABŞ-nin Din Azadlığı Komissiyasının sədri Nuri Türkel, sədr müavini Abraham Kuper, qurumun ekspert qrupu, həm də Dövlət Departmentinin Beynəlxalq Din Azadlığı İdarəsinin direktor müavini xanım Karson Relits Roker ilə görüşüblər.

İkitərəfli müzakirələr zamanı respublikamızdakı mövcud dövlət-din modeli, cəmiyyətimizin tolerantlıq və multikulturalizm ənənələri, Azərbaycanın dinlər və sivilizasiyalar arasında dialoqu təşviq etməsi barədə məlumat verilib. Qeyd edilib ki, bu sahədə Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıl siyasət həyata keçirilir, dini icmaların inkişafı üçün onlara maddi yardımlar edilir. Ölkəmizin dövlət-din münasibətləri sisteminin beynəlxalq aləmdə model kimi qəbul edildiyini vurğulayan sədr müavini Səyavuş Heydərov həmçinin Ermənistan işğalından azad edilmiş ərazilərdə abadlıq-quruculuq işlərinin aparıldığını, mənsubiyyətindən asılı olmayaraq, bütün dini abidələrin bərpa olunduğunu diqqətə çatdırıb.

Din Azadlığı Komissiyasının rəsmiləri Azərbaycana dəvət edilib.

Qeyd edək ki, Azərbaycanın təşəbbüsü ilə oktyabr ayında Vaşinqtonda keçiriləcək konfransda din xadimləri bir araya gələcəklər.

# BƏRDƏDƏ “HEYDƏR ƏLİYEV VƏ MƏNƏVİ DƏYƏRLƏRİMİZ” MÖVZUSUNDA MAARİFLƏNDİRİCİ TƏDBİR KEÇİRİLİB

İyulun 19-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Daxili Qoşunların Bərdə rayonunda yerləşən “N” saylı hərbi hissəsində “Heydər Əliyev və mənəvi dəyərlərimiz” mövzusunda maarifləndirici tədbir keçirilib.

Tədbirdə DQİDK-nın sədr müavini Səyavuş Heydərov, “N” saylı hərbi hissənin komandiri Vurğun Abbasov, DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin müdiri Natiq Əfəndiyev və hərbi hissənin şəxsi heyəti iştirak edib.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov ölkəmizdə formalaşmış dövlət-din münasibətlərinin dünyaya nümunə olduğunu qeyd edib. Komitə sədrinin müavini onu da vurğulayıb ki, bütün ömrünü vətəninə və xalqına həsr etmiş Ümummilli Lider Heydər Əliyev dövlət-din münasibətlərinin, eləcə də milli-mənəvi dəyərlərimizin qorunmasında və inkişafında müstəsna xidmətlər göstərmiş böyük dövlət xadimidir: “Müstəqillik dövrünün təməl daşları üzərində tarixi imzası olan Ulu Öndər azərbaycançılıq ideologiyasının əsasını qoyaraq milli-mənəvi dəyərlər sistemimizi daha da gücləndirmiş, aşınmadan xilas etmişdi”.

Səyavuş Heydərov Ulu Öndərin müəyyənləşdirdiyi bütün xalqların və dinlərin nümayəndələrinin ortaq dəyərlər ətrafında birləşməsini özündə təcəssüm etdirən azərbaycançılıq məfkurəsinin ölkəmizin tərəqqisində müstəsna rolu olduğunu diqqətə çatdırıb.

Natiq eyni zamanda, Prezident cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin multikulturalizm, tolerantlıq dəyərlərini təbliğ edən ölkələrdən olduğunu, milli-dini birlik ideyasının Azərbaycanın dövlət siyasəti səviyyəsində həyata keçirildiyini, hər bir vətəndaşın dini etiqad azadlığının təmin olunmasına dəstək göstərildiyini bildirib. Dövlət Komitəsinin sədr müavini Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində müxtəlif xalqlara və dinlərə mənsub Azərbaycan vətəndaşlarının çiyin-çiyinə döyüşmələrinin, “Dəmir Yumruq” ətrafında həmrəylik nümayiş etdirmələrinin bu istiqamətdə həyata keçirilən uğurlu dövlət siyasətinin məntiqi nəticəsi olduğunu vurğulayıb.

Tədbirdə “N” saylı Hərbi hissənin komandiri Vurğun Abbasov və şəxsi heyətlə iş üzrə müavin Tərlan Babayev bu kimi maarifləndirici tədbirlərin əhəmiyyətindən danışıblar.

# "KÖNÜLLÜMÜZ OL" LAYİHƏSİNİ UĞURLA BAŞA VURAN İŞTİRAKÇILARA SERTİFİKATLAR TƏQDİM EDİLİB






İyulun 1-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov Dövlət Komitəsində təcrübə keçmiş "Könüllümüz ol" layihəsinin iştirakçıları ilə görüşüb.

Diskussiya şəraitində keçən görüşdə sədr müavini könüllüləri maraqlandıran sualları cavablandırıb, könüllülük fəaliyyətinin gənclərin gələcək iş həyatlarına önəmli və effektiv təsir edəcəyinə əminliyini ifadə edib.

Təcrübə kursunu müvəffəqiyyətlə başa vuran gənclərə təbriklərini çatdıran Gündüz İsmayılov onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Altı ay müddətində Dövlət Komitəsində təcrübə toplayan könüllülər göstərilən etimada görə təşəkkürlərini bildiriblər.

Sonda könüllülərə sertifikatlar təqdim edilib.

# DİN SAHƏSİNDƏ ÜZLƏŞDİYİMİZ BİR SIRA TƏHDİD CƏHDLƏRİNİN ARADAN QALDIRILMASINDA AZƏRBAYCAN MƏTBUATININ ROLU, DƏSTƏYİ DANILMAZDIR



"Azərbaycan hüquqi, dünyəvi və demokratik respublikadır. Dövlətin siyasətində din amili özünəməxsus yer tutur. Dinin dövlətdən ayrı olmasına baxmayaraq, dövlətlə din arasında münasibətlər çox möhkəmdir. Bu möhkəmliyin əsasını Ulu Öndər Heydər Əliyev qoyub". Bu sözləri "Report"a açıqlamasında Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Aparat rəhbəri Amil Cavadov deyib. A.Cavadov bildirib ki, 1993-cü ildə xalqın istəyi ilə hakimiyyətə qayıdan Ümummilli Lider hüquqi, dünyəvi və demokratik dövlət quruculuğuna başlamaqla yanaşı, sağlam təməllər üzərində dövlət-din münasibətlərini də formalaşdırdı. Fərəhləndirici haldır ki, dahi şəxsiyyətin mənəvi-dini dəyərlərin qorunması və dövlət-din münasibətləri ilə bağlı müəyyənləşdirdiyi siyasi xətt Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyev Ulu Öndərin nəcib əməllərini, əsasını qoyduğu mütərəqqi ənənələri layiqincə yaşadır, cəmiyyətimizdə dini-mənəvi dəyərlərin möhkəmləndirilməsinə xüsusi diqqət, qayğı və həssaslıqla yanaşır.

Aparat rəhbəri vurğulayıb ki, bu qədər əhəmiyyətli bir siyasətin düzgün qurulmasında, formalaşmasında dövlət qədər cəmiyyətin, xüsusilə media nümayəndələrinin üzərinə mühüm vəzifə düşür: "Dinin düzgün şəkildə təbliği və insanlara çatdırılması önəm kəsb edən məqamlardandır. Milli mətbuatımız, anadilli jurnalistikamız dövlətçiliyimizin bərpası və tərəqqisində mühüm xidmətlər göstərib. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bütün sahələrdə olduğu kimi, mətbuat sahəsində də inkişafa nail olunub. Azərbaycan mətbuatı hər zaman milli-mənəvi və dini dəyərlərə hörmətlə yanaşıb, onların müdafiəsində dayanıb. Bu gün müasir, qloballaşan dünyada dəyərlərimiz, özəlliklə də dini dəyərlərimiz ilə bağlı informasiyaların təhrif olunmadan, olduğu kimi cəmiyyətə ötürülməsinə böyük ehtiyac var. Təəssüflə qeyd olunmalı məqamlardan biri də ondan ibarətdir ki, müasir dünyada sosial şəbəkələr, sosial media yalnız düzgün informasiyalar yayımlamır. Əfsuslar olsun ki, bu virtual məkandan məkrli insanlar, destruktiv qüvvələr də öz bədxah məqsədlərinə uyğun istifadə edərək geniş kütlələrə, xüsusilə, gənclərə təsir etməyə çalışırlar, onları yanlış istiqamətə yönləndirməyə cəhdlər göstərirlər. Məhz bu nüans medianın gücünün dəyərləndirilməsi məsələsini aktuallaşdırır. Dünya təcrübəsi göstərir ki, bəzən hansısa mətbu orqanda dinlə bağlı dərc olunan yanlış bir yazı böyük çaxnaşma, qarşıdurma yaradır. Ona görə də bu məsələdə həssas olmaq çox vacibdir".

Dövlət Komitəsinin rəsmisi onu da bildirib ki, yalan informasiya yayan, din pərdəsi altında gizlənmiş, İslamı və digər dinləri tənqid edən qüvvələrə qarşı mübarizədə, xüsusilə, media nümayəndələri fəal olmalı, terrorizmə və ekstremizmə qarşı tənqidi mövqe nümayiş etdirməlidirlər: "Bu gün Azərbaycan mətbuatı dini radikalizmə qarşı mübarizə məsələsində mühüm rol oynayır, maarifləndirici və təhlil xarakterli yazılar dərc edir. Dini maarifləndirmə işinin həyata keçirilməsində, dini radikalizm və ekstremizmlə mübarizənin təşkilində, milli-mənəvi dəyərlərin qorunmasında və təbliğində media xüsusi önəm daşıyır. Dinin siyasiləşdirilməsi, milli kimliyimizin dini kimliyimizə qarşı qoyulması, dünyəvi təhsilə və dünyəviliyə qarşı cəhdlər, məzhəbçiliyin yayılması kimi din sahəsində üzləşdiyimiz bir sıra təhdid cəhdləri var ki, onların aradan qaldırılmasında Azərbaycan mətbuatının rolu, dəstəyi danılmazdır".

Natiq deyib ki, Azərbaycanda mövcud olan birgəyaşayış, multikultural dəyərlərin, tolerant mühitin təbliğində də medianın rolu böyükdür. Ümumilikdə mətbuatımıza nəzər salsaq, görərik ki, son dövrlərdə milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində xeyli işlər görülüb və görülməkdədir.

# İSLAM DİNİNƏ AİD İBADƏT YERLƏRİNDƏ (MƏSCİDLƏR) VAKANT VƏZİFƏLƏRİN TUTULMASI ÜÇÜN KEÇİRİLƏCƏK MÜSAHİBƏNİN VAXTI VƏ YERİ BƏLLİ OLDU

"Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa edilmiş dəyişikliyin 8-ci maddəsinə əsasən, din xadimlərinin təyinatı və attestasiyası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin səlahiyyətləri sırasına daxil edilib. Qanunun tələbindən irəli gələn məsələlərin icrası məqsədilə "İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi Qaydası" təsdiq olunub və Ədliyyə Nazirliyi tərəfindən Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilib. Qaydalara uyğun olaraq din xadimlərinin təyinatı və attestasiyası üçün müsahibə proqramı tərtib edilib, Müsahibə və Attestasiya komissiyaları formalaşdırılıb, eyni zamanda 24.05.2022-ci il tarixində elan edilmiş İslam dininə aid ibadət yerləri (məscidlər) üzrə vakant vəzifələrə sənəd qəbulu 24.06.2022-ci ildə başa çatıb. 39 vakant vəzifənin tutulması üçün 270 namizədin sənədi qeydə alınıb.

Vakant vəzifələrin tutulması üçün müsahibə avqust ayının 2-dən etibarən başlayacaq. Müsahibə Azərbaycan İlahiyyat İnstitutunun binasında (Bakı şəhəri, Məhəmməd Naxçıvani 29) təşkil ediləcək. Qeydiyyatdan keçmiş hər bir namizədə müsahibənin keçiriləcəyi gün və saat haqqında fərdi qaydada məlumat veriləcək.

Müsahibə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaratdığı komissiya tərəfindən aparılır. Hər bir namizəddən ona bildirilmiş vaxtda müsahibə keçiriləcək ünvana gəlməsi xahiş olunur.

# JURNALİSTLƏR ARASINDA ELAN EDİLMİŞ "VİCDAN AZADLIĞI VƏ MEDİA" MÖVZUSUNDA YAZI MÜSABİQƏSİNİN QALİBLƏRİ MÜƏYYƏNLƏŞİB




Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Milli Mətbuat Günü münasibətilə jurnalistlər arasında elan etdiyi "Vicdan azadlığı və media" mövzusunda yazı müsabiqəsinin qalibləri müəyyən olunub.

Müsabiqənin nəticəsinə görə, Pərviz Sadayoğlu ("Yeni Azərbaycan" qəzeti) I, Sevinc Qarayeva ("525-ci qəzet") və Günay Elşadqızı (APA İA) II, Aytən Abdulova (Azərbaycan Televiziyası), Samirə Abdullayeva (Report İA) və Elnurə Abuşova (Azadmedia.az) III yerlərə, Könül Aypara (Space Tv), Aygün İbrahimova (Elxeber.com), Bəxtiyar Məmmədli ("Kaspi" qəzeti), Aytən Zəhra (Azvision.az), Vaqif Bayramov ("Xalq" qəzeti) və Ədil Ədilzadə (Sabahinfo.az) isə həvəsləndirici mükafatlara layiq görülüblər.

# AZƏRBAYCANDA MƏHƏRRƏMLİK

Məhərrəm ayı İslam dünyası üçün önəmli aylardan biridir. Çünki bu ay hicri təqviminin başlanğıcı və yeni ilin gəlişi deməkdir. Həm də İslam tarixində müharibənin qadağan olunduğu dörd aydan biridir. İslam inancına görə, bir çox peyğəmbərlə bağlı önəmli hadisələr bu ayda gerçəkləşmişdir: Həzrət Adəmin (ə) yaradılışı, İbrahim peyğəmbərin (ə) doğulması, Musa peyğəmbərin (ə) yəhudiləri Firondan xilas edərək Misirdən çıxarması və s. Bu ayda ən önəmli hadisələrdən biri də Həzrət Məhəmməd peyğəmbərin (s) nəvəsi Həzrət Hüseynin (ə) və ən yaxınlarının Kərbəla çölündə şəhid edilməsidir. Kərbəla hadisəsi İslam mədəniyyətinə, onun adət-ənənələrinə təsir etməklə yanaşı, müxtəlif ideoloji istiqamətlərin formalaşmasına da təkan vermişdir.

Tarixi mənbələrə görə, Azərbaycanda Məhərrəmlik mərasiminin kökləri erkən orta əsrlərə gedib çıxır. Müsəlman dünyasının tərkib hissəsi olan ölkəmizdə orta əsrlərdə İmam Hüseynin (ə) faciəsinə ictimai-siyasi əhəmiyyət, əsasən, şiə məzhəbində verilmişdir. Səfəvi sülaləsinin banisi Şeyx Səfiəddin (1252-1334) Ərdəbil şiələri arasında isnə-əşəri (on iki imama inananlar) ehkamını siyasi dayaq üçün təbliğ edərkən, özünü yeddinci imam Museyi Kazımın (ə) nəslindən elan etmiş və "İmam Hüseyn müsibəti" əhvalatını öz təbliğatının əsas mövzusuna çevirərək, ondan siyasi məqsədlər üçün geniş istifadə etmişdir. Onun nəslindən olan Ərdəbil şeyxləri - Şeyx Cüneyd, Şeyx Heydər, Şeyx Sultan Əli, Şah İsmayıl və sonrakı Səfəvi hökmdarları bu istiqaməti davam etdirmişlər.

Şiəlik Azərbaycanda XVI əsrin əvvəllərindən başlayaraq, 230 ildən artıq hökmranlıq etmiş Səfəvilərin rəsmi dövlət məzhəbi olduğundan, Məhərrəmlik mərasimindən istifadə edilməsi Səfəvilər sülaləsinin siyasi platformasında zəruri tədbirə çevrilmişdir. Belə ki, bu mərasim bəzi hallarda düşmən dövlətlərlə çəkişmə və müharibə apararkən onların əlində kütlələri müharibəyə təhrik etmək, döyüş əzmini qaldırmaq və güclü dini-siyasi səfərbəredici vasitə rolunu oynamışdır. Elə həmin dövrdən Azərbaycan ərazisində Məhərrəmlik təziyədarlığı rəsmiləşdirilmiş, Kərbəla hadisəsi haqqında növhələr, mərsiyələr yazılmışdır. Dindarları kədərləndirməyi, ağlatmağı təlqin edən və matəm ab-havası yaradan belə yazılar xalq arasında geniş yayılmağa başlamışdır.

XVI əsr Səfəvilər dövrünün şiə ilahiyyatçıları Vazeh Hüseyn Kəşfinin "Şəhidlər bağçası", "Xoşbəxtlər bağçası", müctəhid Fazil Dərbəndinin "Şəhidlərin sirləri" adlı kitablarında və bu dövrdə tərtib olunmuş başqa yazılarda Kərbəla hadisəsi tarixilikdən çox, ədəbi üslubda təsvir edilmişdir.

Bununla yanaşı, dövrün dini-fanatik əhval-ruhiyyəsindən çıxış edən və hakim dairələrin mənafeyini müdafiə edən bəzi ilahiyyatçılar Məhərrəmlikdə dindarların özlərini döyməsini, zəncir vurmasını, baş yararaq qan tökməsini, şəbih oyunu çıxarmasını İmam Hüseynin (ə) xatirəsinə hörmət əlaməti, hətta dini etiqadın şərtləri kimi qələmə verməyə başlamışlar.

Azərbaycanda çar Rusiyası illərində də Məhərrəmlik mərasimləri kütləvi qeyd edilmişdir. Lakin bu istiqamətdə müəyyən təşkilati fərqliliklər nəzərə çarpır. Çünki XIX əsrin əvvəllərində Zaqafqaziya ərazisinin Rusiya imperiyasına qatılması ilə əlaqədar regionda İslam təsisatlarının strukturunda əhəmiyyətli dəyişikliklər olmuşdur. Zaqafqaziyada yaşayan müsəlmanlar arasında çoxluq təşkil edən şiələri İrandakı dini mərkəzlərin, ilahiyyatçıların mənəvi təsirindən və tabeliyindən xilas etmək, şiə ruhanilərini Rusiya müstəmləkə üsuli-idarəsinin məmurlarına çevirmək məqsədilə 1823-cü ildə Şeyxülislam vəzifəsi təsis edilmiş və artıq Məhərrəmlik mərasimləri onun nəzarəti altında keçirilməyə başlamışdır. Bununla yanaşı, Bakıda və digər böyük şəhərlərdə yerli bəy və xanlar Məhərrəmliyin keçirilməsinə himayədarlıq göstərir, çoxlu rövzəxan, vaiz, mərsiyəxan saxlayıb, təkyələr təşkil edir, təziyədarlara qənd, çay, qara və ağ çit parça paylayır, əhali arasında matəm əhval-ruhiyyəsinə dəstək olurdular.

XIX əsrin sonu, XX əsrin əvvəllərində küçələrə çıxıb təziyə dəstələri düzəltmək, dini yürüşlər keçirmək, zəncir vurmaq, baş yarmaq və şəbih oyunu çıxarmaq kütləviləşərək dəb halını almışdır.

Azərbaycan ziyalıları içərisində Məhərrəmlik mərasiminin belə keçirilməsinə münasibət birmənalı deyildi. Onlar məhərrəmliyin mahiyyətinin xalqa intellektual səviyyədə çatdırılmasının tərəfdarı olub, dini fanatizmə, mövhumat və cəhalətə xidmət edən ünsürləri ciddi tənqid atəşinə tuturdular. Cəmiyyətin ziyalı təbəqəsi və açıqfikirli din xadimləri İmam Hüseyn (ə) təziyəsini gəlir mənbəyinə çevirib, din pərdəsi altında mövhumatı yaymağa çalışanları ifşa edirdilər. Onlar dindarları loyal olmağa çağırır, cahil hərəkətlərdən əl çəkərək, İmam Hüseyn (ə) təziyəsini ədəb-ərkan çərçivəsində, hörmətlə keçirməyi məsləhət görürdülər.

Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra dinə və dini təsisatlara münasibət dəyişdi. Hakim rejimin apardığı ateist təbliğat, partiya və ictimai təşkilatların fəaliyyəti, habelə kobud inzibatçılığın və təzyiqlərin nəticəsində insanların əksəriyyətinin dindən uzaqlaşdırılmasına səy göstərilirdi. Bu proses bolşevik çevrilişinin ilk günlərindən başlamış, iyirminci illərdə genişlənmiş, otuzuncu illərdə daha da təşəkkül tapmışdır. Bu illərdə məscid və kilsələr əsassız olaraq bağlanmış, bir çox dini bina dağıdılmış, ruhanilər və dindarlar təqiblərə məruz qalmışlar. Bunun nəticəsində əhali öz dini hisslərini gizlətməyə məcbur olmuşdur. Bütün bunlara baxmayaraq, dindarlar dini mərasimlər zamanı gizli şəkildə evlərdə toplaşaraq, Məhərrəmliyi qeyd etmiş, Kərbəla hadisəsinin təziyədarlığını saxlamışlar.

Sovet hakimiyyətinin sonrakı mərhələlərində dinə və dindarlara, nisbətən yumşaq münasibət bəslənilmişdir. Bu, əsasən, onunla izah olunur ki, elmi-ateizm təbliğatının güclənməsi, dini ayinlər haqqında qanunvericiliyin möhkəmlənməsi, din və dindarların ictimai qınaq obyektinə çevrilməsi və s. amillər güclənmiş, nəticədə Məhərrəmlik mərasimləri əvvəlki kütləviliyini itirmişdir. Lakin bu mərhələdə bir sıra tendensiyalar özünü göstərmişdir. İnzibati təzyiqlər və anti-dini təbliğat mexanizminin təsirləri altında qalan əhalinin bir hissəsi dini baxışlara laqeydlik göstərərək, dini matəmlərdə iştirak etməyə məhəl qoymasa da, digər tərəfdən Azərbaycanın bəzi yerlərində Məhərrəmlik mərasimi zamanı dindarlar zəncir vurmuş, baş yarmışlar.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra dini plüralizmə qədəm qoyması, din sahəsində məhrumiyyətlərin aradan qaldırılması və bu kimi amillər Məhərrəmlik mərasiminin keçirilməsində intensivliyə rəvac vermişdir.

Təəssüflə vurğulanmalıdır ki, Kərbəla hadisəsinin əsl mahiyyəti müasir dövrdə də bəzən düzgün dərk edilmir. Bəzi insanlar hesab edirlər ki, bu günün əsas məqsədi ağlayaraq savab qazanmaq və günahlardan təmizlənməkdir. Bəzilərinin fikrincə isə həmin gün insanlar ağlamağa məcbur edilməli, qara bayraqlar qaldırıb, küçə yürüşləri keçirilməlidir. Onlara görə, şəriətə uyğun olmayan bu davranışlar Məhərrəmlikdə halal mahiyyət qazanır və insanlar göz yaşı axıtmaqla mənəvi cəhətdən paklaşırlar. Bəzən vaizlər diqqət çəkmək, insanların özlərini döyməklə fəryad etməsinə nail olmaq məqsədilə uydurma hekayələr danışırlar.

Əslində, bu mərasimlərin keçirilməsinin məqsədi bədbinlik əhval-ruhiyyəsini yaymaq deyil, fədakarlığı, dəyanətə çağırışı, vətənpərvərlik ruhunu, əhdə vəfanın mənşəyini təcəssüm etdirmək olmalıdır. Bu mənada əbəs deyil ki, İslam dinində ədalət uğrunda mübarizədə şəhidlik məqamına yüksəlməkdən söhbət gedərkən, İmam Hüseynin (ə) adı ilk xatırlananlardandır.

Şübhəsiz ki, o dövrdə Əhli-beytə edilən zülm müsəlmanları kədərləndirir. Ancaq İmam Hüseynə (ə) olan məhəbbət nə qədər gözəldirsə, Allah sevgisi, rizası daha uca və riayət edilməyə daha çox layiqdir.

Allah-Təala müqəddəs Qurani-Kərim vasitəsilə insanın özünə xəsarət yetirməsini haram buyurmuşdur. Bu səbəbdən zəncir vurmaq, bədənə xəsarət yetirmək doğru deyil və günah əməl sayılır.

Aşura mərasimləri məscidlərdə, ibadət ocaqlarında ictimai asayiş qaydalarına riayət olunmaqla keçirilməli, təziyə məclislərində Kərbəla şəhidlərinin şəninə xütbələr oxunmalıdır. Müqəddəs məkanlarda nizam-intizam gözlənilməli, saç yolmaq, zəncir vurmaqla qan çıxarmaq kimi qınağa səbəb hərəkətlərə yol verilməməlidir. Qan çıxarmağı zəruri hesab edənlərə isə könüllü qanvermə aksiyalarına qoşulmaları tövsiyə olunur. Bununla onlar Allah qarşısında böyük savab qazanmaqla yanaşı, donor qana ehtiyac duyan minlərlə insanın müalicəsinə böyük töhfə vermiş olarlar.

Hazırda Azərbaycanda məscidlərdə Məhərrəmlik mərasimi dindarların əksəriyyətinin iştirakı ilə keçirilsə də, bəzi ayinlər - baş yarmaq, zəncir vurmaq kimi hallar aradan qalxmışdır. Yalnız nadir hallarda zəncir vuranlara rast gəlmək mümkündür.

Azərbaycanda hər il Aşura mərasimi ilə bağlı bəzi xeyriyyə tədbirləri təşkil olunur. Hemofiliya və talassemiyalı xəstələr üçün qanvermə aksiyaları keçirilir.

Son illərin müşahidələri onu da deməyə əsas verir ki, Məhərrəmlik mərasimləri ildən-ilə öz mahiyyətinə uyğun olaraq, daha sivil formada keçirilir. Əvvəlki illərlə müqayisədə, maariflədirmə və təbliğat işinin həyata keçirilməsi nəticəsində xarici ünsürlərin belə mərasimlərə təsir gücünün azalması, həmçinin dini fanatizm, xurafat və cəhaləti təbliğ edənlərin və İmam Hüseyn (ə) təziyəsini gəlir mənbəyinə çevirərək din pərdəsi altında mövhumatı yaymağa çalışanların azalması tendensiyası da diqqəti cəlb edir.

*"Cəmiyyət və Din"*

## MƏHƏRRƏMLİK

Bu gün Məhərrəmlik ayının yavıqlaşmağı münasibəti ilə əməllər içində və qeyri yerlərin camaatı arasında yıqıncaqlar qərar verilir və Məhərrəmlik barəsində müəyyən natiqlər tərəfindən nitqlər söylənir.

Bu yığıncaqlardan və bu danışıqlardan murad odur ki, çamaat təziyənin nə olduğunu başa düşsün və Məhərrəmlikdə təziyə saxlamalı olsa, məscidə və qeyri ibadətxanaya daxil olub imamı layiqincə və təmkinlə yad etsin və dəxi küçələrə düşub nərə etməklə dunyanı öz vəhşiliyinə şahid çəkməsin.

Mənim sözüm orasında deyil; sözüm orasındadır ki, indi haman yığıncaqlarda natiqin biri ki, məsələn deyir — qardaşlar! Baş yarmayın və bədəninizi zəncirlə yaralamayın, çünki başı insana Allah-Təala ondan ötrü verməyib ki, baş sahibi öz əli ilə öz başını yaralasın, ondan ötrü veribdir ki, məsələn, birinin başına yara toxunanda o biri insan başını işlətsin və bu yaraya bir dərman tapsın. Bədəni ondan ötrü Allah-Təala öz mömin bəndələrinə verməyib ki, mömin bəndə öz yumruğu ilə öz döşünü zədələsin, ondan ötrü verib ki, insan döşünü qabağa verib, bir tərəfdən əhli-əyalına çörək qazansın və lazım olan yerdə də döşünü qabağa verib Vətənini mühafizə eləsin.

Mən çox istərdim biləm ki, həmin natiqlərin və vaizlərin nəsihətini eşidən camaat bu sözləri danışanlara nə cavab verir.

Amma mənim zənnimcə, gərək bu sözlərin cavabını camaat bu cürə verə. Gərək deyə:

- Ey bizim əziz natiqlərimiz! Bu sözlər ki, burada danışdınız - bu sözlərdən biz çox rəncidəxatir olduq. O səbəbə ki, bu sözləri məhz vəhşilərə demək olar; çünki ancaq vəhşi adam öz başını və döşünü yaralar; ancaq dəli və divanə küçələrə düşüb əlinə bir dəyənək alar və nərə təpə-təpə dünyavü aləmi öz nadanlığına tamaşaçı qərar verər.

Vaqeən çox ağır sözdür. Elə qanıram ki, bu nəsihətləri eşidən camaatda bir az-maz naziklik olsa, gərək bir az həya edə.

Çünki belə nəsihətləri bircə dəli-divanəyə edərlər.

**Molla Nəsrəddin.**
*«Molla Nəsrəddin», 11 avqust, 1923, N 29.*

# QMİ MƏHƏRRƏM AYININ BAŞLAMASI İLƏ ƏLAQƏDAR MÜRACİƏT YAYIB

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası Məhərrəm ayının başlaması ilə əlaqədar müraciət yayıb. Müraciətdə deyilir:

"Bismillahir-rəhmanir-rəhim!

Möhtərəm mömin qardaş və bacılar!

Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və səlahiyyətli nümayəndələri nəzərinizə çatdırır ki, Hicri-qəməri təqvimi ilə 1443-cü il başa çatır, yeni 1444-cü ilin başlanğıcı – Məhərrəm ayının 1-i Miladi təqvimlə 2022-ci il iyul ayının 30-na, Aşura günü isə avqust ayının 8-nə təsadüf edir.

Əsrlər boyu Azərbaycanda ənənəvi olaraq qeyd edilən Məhərrəm ayının Aşura günü - İmam Hüseyn əleyhissəlamın ailəsi və səhabələri ilə birlikdə Haqq uğrunda şəhadətə yetişməsi dünya tarixində qəhrəmanlıq salnaməsi kimi dəyərləndirilməlidir. Peyğəmbərimiz Məhəmməd salavatullahın əziz nəvəsi Həzrət Hüseynin (ə) bu mənəvi qələbəsi dünyada zülm və haqsızlığa qarşı mübarizənin bariz nümunəsidir. İslam fəlsəfi məktəbinə görə, Aşura - insana İman şüarı olan “Allahdan başqa ibadətə layiq heç bir varlıq yoxdur” zikrini əməli halda sübuta yetirən və İslam dininin yaşadılmasını təmin edən özəl günlərdən biridir.

Kərbəla şəhidləri İslamın “yaxşılığa dəvət və pislikdən çəkindirmə” məfkurəsini bütün ümmət üçün əsl nümunəyə çevirmiş, din, Vətən və ailə şərəfi uğrunda fədakarlığın və mükəmməl əxlaqın parlaq təzahürünü yaratmışlar. Bu mənada İmam Hüseyn məktəbi - Allah, Vətən və xalq naminə şəhadətin nümunəvi göstəricisi, mənəvi-əxlaqi dəyərlər müstəvisində danılmaz yeri olan dini-tarixi örnəkdir.

İmam Hüseyn əleyhissalamın müqəddəs xatirəsinin və Kərbəla müsibətinin nəsillərin yaddaşında yaşadılması imanın, əqidəyə sadiqliyin, Vətən, torpaq, ailə naminə şəhidlik məktəbinin əbədi təcəssümüdür. Həmd olsun Allaha ki, Məhərrəm ayını 30 illik Qarabağ həsrətinin sonu, illər boyu dualar etdiyimiz zəfər dönəmində qarşılayırıq. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində şanlı Ordumuzun bizlərə yaşatdığı qürur və sevincə görə Uca Yaradana həmd-sənalar, dövlətimizə dualar edirik. Qarabağda yenidənqurmanın başlanması, dini-mədəni abidələrimizin bərpası, həmvətənlərimizin doğma yurd-yuvalarına Böyük Qayıdışı – bütün bunlar Allah-Təalanın lütfü və müdrik dövlət başçımızın sayəsində reallaşan arzularımız, dualarımızdır. Uca Allah xalqımızı, dövlətimizi hifz etsin, dövlət rəhbərimizin və Ali Baş Komandanımızın Azərbaycan naminə fəaliyyətinə daima rəvac versin!

Qazılar Şurası olaraq dindarlarımıza xatırlatmaq istərdik ki, Məhərrəmlik mərasimləri zamanı müxtəlif alətlərlə bədənə xəsarət yetirmək, qan çıxarmaq və s. şəriətə görə icazəli deyildir. Son illər Məhərrəmlik dönəmində Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü ilə gerçəkləşən və xalqımız tərəfindən təqdir edilən tibbi ehtiyaclar üçün Kərbəla şəhidlərinin xatirəsinə qan verilməsi isə ən münasib əzadarlıq nümunələrindən biridir. Ümidvarıq ki, inşallah, dindarlarımız bu il də humanist ənənəni davam etdirərək, qan bankının paytaxtda və bölgələrdəki filiallarında, habelə digər səhiyyə ocaqlarında ehsan niyyəti ilə qan verəcək, minlərlə xəstə insana, irsi xəstəliklərdən əziyyət çəkən uşaqlara İmam Hüseyn (ə) xatirinə həyat bəxş edəcəklər. Həmin məkanların ünvanları Qafqaz Müsəlmanları İdarəsinin rəsmi veb səhifəsində (www.qafqazislam.com) yerləşdiriləcək.

Həmçinin QMİ Qazılar Şurası yerlərdəki nümayəndələrinin nəzərinə çatdırır ki, “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununun müddəalarına riayət edərək dini mərasimləri məscid, ziyarətgah və onlara aid ərazilərdə keçirsinlər. Özəlliklə, son günlər pandemiyanın artım tendensiyasını nəzərə alaraq, Məhərrəmlik ayinləri tibbi-profilaktik qaydalara uyğun olmalıdır. Qeyd olunan tövsiyələrin bölgələrdəki din xadimlərinin dindarlara çatdırması vacibdir, qazılar və səlahiyyətli nümayəndələr görülən tədbirlər barədə hesabatlarını Qafqaz Müsəlmanları İdarəsinə təqdim etməlidirlər.

Allah yanında imanın, mənəviyyatın yüksək məqamlarından biri – ailə, torpaq və Vətən uğrunda şəhidlikdir. Məhərrəmlik dönəmində ibadət və dualarımızda Kərbəla şəhidləri ilə yanaşı Birinci və İkinci Qarabağ müharibəsində Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəman övladlarımızın, həmçinin 20 Yanvar və Xocalı soyqırımı qurbanlarının əziz xatirəsini yad etməklə şəhidlərimizə rəhmət, qazilərimizə şəfalar diləmək bizim vəfa borcumuzdur. Allah-Təalanın Nəim cənnətləri ilə müjdələnən, Peyğəmbər Məhəmməd salavatullahın mübarək hədisində buyurulduğu kimi, Allah yanında imanın, mənəviyyatın ən yüksək məqamına yüksələn şəhidlərə, o cümlədən Kərbəla və Vətən şəhidlərimizə rəhmət, qazilərimizə şəfaət, bütün xalqımıza dəyanət və səadət diləyirik.

Vəs-səlamu əleykum və rəhmətullahi və bərəkatuhu!"

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, cəmiyyətimizin maddi və mənəvi cəhətdən səfərbər olunması, insanların mənəvi baxımdan sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini iyul ayı ərzində də davam etdirmişdir.*

**Cari ay ərzində bu qəbildən olan tədbirlər:**

**1 iyul** – DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Oğuz şəhər Cümə məscidində “Xalqımızın tolerantlıq ənənələrinin və multikulturalizm siyasətinin milli həmrəyliyimizin möhkəmlənməsindəki rolu” mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lerik Rayon İcra Hakimiyyəti (RİH) və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) səlahiyyətli nümayəndəliyinin birgə təşkilatçılığı ilə “Multikultural cəmiyyətdə məzhəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlər” mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Kürdəmir rayon Muradxan kənd “İmam Hüseyn” məscidi dini icmasının birgə təşkilatçılığı ilə “Yeniyetmə və gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq” mövzusunda;



**5 iyul** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Naftalan şəhər məscidində “Mili-mənəvi dəyərlərimiz və vətənpərvərlik” mövzusunda;

**6 iyul** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Kürdəmir şəhər “İmam Rza” məscidi dini icmasının birgə təşkilatçılığı ilə “Mənəvi birlik rəmzi – Qurban



bayramı” mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Beyləqan rayon “N” saylı hərbi hissənin birgə təşkilatçılığı ilə “İslamda insan həyatının dəyəri” mövzusunda;

**7 iyul** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağdaş rayonunda “Qurban bayramı xalqımızın milli-mənəvi dəyərlərinə bağlılıq, mərhəmət və birlik rəmzidir” mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Sabirabad RİH və QMİ-nin Sabirabad rayonu üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə “Qurban bayramı müsəlmanların mənəvi birlik və həmrəylik rəmzidir” mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Oğuz rayonunda “Qurban bayramında dinlərarası münasibətlər: qardaşlıq, birlik və tolerantlıq” mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zərdab rayonunda “Qurban bayramı: tarix, ənənə və müasirlik” mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Qax RİH və Qax rayon Gənclərin İnkişaf və Karyera Mərkəzinin birgə təşkilatçılığı ilə “Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri” mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyində “Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri” mövzusunda;

**8 iyul** – DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsinin birgə təşkilatçılığı ilə Tərtər rayonunda “İslamda insan həyatının dəyəri” mövzusunda;

**9 iyul** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Abşeron rayonunda yerləşən “N” saylı hərbi hissənin təşkilatçılığı ilə hərbi hissədə Qurban bayramı ilə əlaqədar tədbir; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Goranboy rayonunda Qurban bayramı ilə əlaqədar tədbir; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Abşeron rayonunun Güzdək qəsəbəsində “Qurban bayramı - mənəvi dəyərimiz” mövzusunda;

**13 iyul** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhərində yerləşən hərbi hissələrdə “İnsan həyatı: Allahın əmanəti kimi” mövzusunda;

**14 iyul** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH və QMİ-nin Quba rayonu üzrə səlahiyyətli nümayəndəliyinin birgə təşkilatçılığı ilə Hacıhüseynli kəndində “Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə və mənəvi dəyərlərə təhdid kimi” mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH, Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Balakən Rayon Şöbəsi və Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) birgə təşkilatçılığı ilə “Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri” mövzusunda;



**15 iyul** – DQİDK və Müdafiə Nazirliyi arasında təsdiqlənmiş Tədbirlər Planına uyğun olaraq Yevlax rayonunda yerləşən “N” saylı hərbi hissədə “İslamda insan həyatının dəyəri” mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Azərbaycan Texnologiya Universitetinin (UTECA) birgə təşkilatçılığı ilə “Milli dövlətçiliyə təhlükə yaradan dini-siyasi cərəyanlara qarşı mübarizədə ali təhsil müəssisələrinin rolu” mövzusunda;

davamı səh. 10

# QISA-QISA

əvvəli səh. 9

**16 iyul** – DQİDK və Müdafiə Nazirliyi arasında təsdiqlənmiş Tədbirlər Planına uyğun olaraq Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissədə "Dinin intihara baxışı" mövzusunda; DQİDK və Müdafiə Nazirliyi arasında təsdiqlənmiş Tədbirlər Planına uyğun olaraq Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə "İntihar: mənəvi və ictimai müstəvidə" mövzusunda;

**18 iyul** – DQİDK və Müdafiə Nazirliyi arasında təsdiqlənmiş Tədbirlər Planına uyğun olaraq Pirəkəşkül qəsəbəsində yerləşən "N" saylı hərbi hissədə "İslamda insan həyatının dəyəri" mövzusunda;



**19 iyul** – DQİDK və Müdafiə Nazirliyi arasında təsdiqlənmiş Tədbirlər Planına uyğun olaraq Bərdə rayonunda yerləşən "N" saylı hərbi hissədə "İslamda insan həyatının dəyəri" mövzusunda; DQİDK və Müdafiə Nazirliyi arasında təsdiqlənmiş Tədbirlər Planına uyğun olaraq Bakı şəhəri Səngəçal qəsəbəsində yerləşən "N" saylı hərbi hissədə "İslamda insan həyatının dəyəri" mövzusunda; DQİDK və Müdafiə Nazirliyi arasında təsdiqlənmiş Tədbirlər Planına uyğun olaraq Ağcabədidə yerləşən "N" saylı hərbi hissədə "Şəxsi heyətin vətənpərvərlik ruhunun və mənəvi-psixoloji vəziyyətinin yüksəldilməsi" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən "Gənclər evi" sosial xidmət müəssisəsi və rayon Gənclərin İnkişaf və Karyera Mərkəzinin birgə təşkilatçılığı ilə "Uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi" mövzusunda;

**20 iyul** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Sumqayıt şəhərində yerləşən "N" saylı hərbi hissənin birgə təşkilatçılığı ilə "Mənəvi dəyərlərimiz intihara yox deyir!" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Xaçmaz RİH və Xaçmaz rayonu Qımılqışlaq kənd məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Milli birliyin möhkəmlənməsində mənəvi dəyərlərin rolu" mövzusunda; DQİDK və Müdafiə Nazirliyi arasında təsdiqlənmiş Tədbirlər Planına uyğun olaraq Güzdək qəsəbəsində yerləşən "N" saylı hərbi hissədə "İslamda insan həyatının dəyəri" mövzusunda;

**21 iyul** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Zaqatala RİH-in birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasında dini icmaların rolu" mövzusunda;

**22 iyul** – DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi, Füzuli RİH və "Qayıdış" qəzetinin birgə təşkilatçılığı ilə Füzuli rayonunun Heydər Əliyev Mərkəzində "Milli-mənəvi dəyərlərin təbliği və dini maarifləndirmənin effektivliyinin artırılmasında medianın rolu" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Qax RİH və YAP Qax Rayon Təşkilatının birgə təşkilatçılığı ilə "Milli dövlətçiliyin möhkəmlənməsində azərbaycançılıq ideologiyası və mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi, Biləsuvar RİH, rayon Təhsil Şöbəsi, eləcə də rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Biləsuvarda "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə və mənəvi dəyərlərə təhdid kimi" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi və Neftçala RİH-in birgə təşkilatçılığı ilə Neftçala rayonunda "İslamda insan həyatının dəyəri" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Qubadlı rayonunda yerləşən "N" saylı hərbi hissənin birgə təşkilatçılığı ilə "İslamda insan: bəşərin əşrəfi kimi" mövzusunda; DQİDK və Müdafiə Nazirliyi arasında təsdiqlənmiş Tədbirlər Planına uyğun olaraq Bakı şəhəri Qaradağ rayonu ərazisində yerləşən "N" saylı hərbi hissədə "İslamda insan həyatının dəyəri" mövzusunda;

**26 iyul** – DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sərhəd Qoşunlarının Şəmkir rayonunda yerləşən hərbi hissəsində "Dini zəmində bölücülüyün milli təhlükəsizliyə təsiri" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab rayonu MKS-in birgə təşkilatçılığı ilə "Vətən sevgisi: şəhidlik və qazilik" mövzusunda;

**27 iyul** – DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sərhəd Qoşunlarının Qazax rayonunda yerləşən hərbi hissəsində "Dini zəmində bölücülüyün milli təhlükəsizliyə təsiri" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Siyəzən RİH və Siyəzən "Cümə" məscidi dini icmasının birgə təşkilatçılığı ilə multikulturalizm ənənələrinin əhəmiyyətinə həsr olunmuş tədbir; DQİDK-nın Bakı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qaraçuxur qəsəbəsində Məhərrəm ayı ilə bağlı tədbir; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı RİH və rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Saatlı rayonunda Məhərrəm ayı ilə bağlı tədbir; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə



Kürdəmir şəhər İmam Rza məscidində Məhərrəm ayı ilə bağlı tədbir;

**28 iyul** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Yevlax rayon Xaldan kənd "Cümə" məscidində "Məhərrəmlik ayında dini mərasim, ayin və tədbirlərin təşkili və keçirilməsi" mövzusunda;

**29 iyul** – DQİDK və Müdafiə Nazirliyi arasında təsdiqlənmiş Tədbirlər Planına uyğun olaraq Bakı şəhərinin Binəqədi rayonunda yerləşən "N" saylı hərbi hissədə "İslamda insan həyatının dəyəri" mövzusunda baş tutub.



DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin, o cümlədən hərbi hissələrin şəxsi heyəti, müəllimlər, mədəniyyət işçiləri, gənclər və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbirlərdə natiqlər milli birliyin möhkəmlənməsində mənəvi dəyərlərin rolu barədə danışıblar. Qeyd edilib ki, milli-mənəvi dəyərlərə və tarixi-mədəni irsə bağlılığın möhkəmlənməsi, adət-ənənələrin qorunması, mədəni-tarixi abidələrin mühafizəsi, mənəvi irsin öyrənilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir.

Çıxışlarda dini radikalizm və ekstremizmlə mübarizədə milli-mənəvi dəyərlərimizin roluna toxunulub. Gənclərin zərərli vərdişlərdən və radikal dini təsirlərdən qorunmasının vacibliyi vurğulanaraq, xalqımızın zəngin milli-mənəvi, tolerant və multikultural dəyərlərinin gənclər arasında fəal təbliğ edilməsinin vacibliyi diqqətə çatdırılıb. Həmçinin bu istiqamətdə dövlətin həyata keçirdiyi tədbirlərdən bəhs olunub.

Çıxışlar zamanı ölkəmizdə müxtəlif dinlərin, məzhəblərin və xalqların nümayəndələrinin sülh və qarşılıqlı hörmət şəraitində yaşadıqları qeyd edilib. Natiqlər məzhəbçilik və dini təəssübkeşlik meyillərinin multikultural cəmiyyət üçün yad olduğunu bildiriblər. Xüsusilə qeyd olunub ki, ölkəmizdə bütün dinlərin nümayəndələrinin hüquq, inanc və azadlığına hörmətlə yanaşılır.

Qurban bayramı ilə əlaqədar keçirilən görüşlərdə bayramın mahiyyəti, fəlsəfəsi və tarixi haqqında geniş məlumat verilib. Bildirilib ki, bu bayram İslam aləmində müqəddəs bayramlardan biridir və xalqımız öz milli adət-ənənələrinə həmişə hörmətlə yanaşaraq, bütün dini mərasimləri, o cümlədən Qurban bayramını böyük sevinclə qeyd edir. Eyni zamanda vurğulanıb ki, Ümummilli Lider Heydər Əliyev həmişə milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasına böyük önəm verib. Azərbaycanda dövlət müstəqilliyinin bərpasından sonra dini bayramlar, o cümlədən Qurban bayramı böyük təntənə ilə keçirilir.

Narkomaniyanın fəsadları və ölkəmizdə narkomaniyaya qarşı aparılan tədbirlərdən, zərərli vərdişlərə qarşı mübarizədə gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin əhəmiyyətindən, İslam dinində insan həyatına verilən dəyərdən, uşaqların doğulanadək cins seçiminin qarşısının alınması hallarına qarşı mübarizədə profilaktik və qabaqlayıcı tədbirlərin vacibliyindən, radikalizmin yaranma, yayılma və inkişaf səbəbləri, onunla mübarizə metodları, radikalizmdən qorunma üsullarından bəhs olunan tədbirlərdə qarşılıqlı diskussiyalar aparılıb, iştirakçıların təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

# BRİTANİYALI ZƏVVAR MƏKKƏYƏ PİYADA GEDİB



Britaniyalı zəvvar Adəm Məhəmməd piyada 6,5 min kilometr məsafə qət edərək Məkkəyə gedib.

SPA agentliyi xəbər verir ki, 52 yaşlı britaniyalı zəvvar 11 ay və 26 gün ərzində Niderland, Almaniya, Çexiya, Macarıstan, Rumıniya, Bolqarıstan, Türkiyə, Livan, Suriya və İordaniya ərazilərindən keçərək Səudiyyə Ərəbistanına daxil olub. O, sutkada orta hesabla 17,8 kilometr məsafə qət edərək Məkkədəki Ayişə məscidinə çatıb. Burada britaniyalı zəvvarı yerli sakinlər və Londondan Həcc ziyarətinə gəlmiş iki qızı qarşılayıblar.

Adəm Məhəmməd bildirib ki, COVID-19 pandemiyasının tüğyan etdiyi ötən iki ildə Quranı oxuyub və Həcc ziyarətinə getməyi arzulayıb. Britaniyadakı xeyriyyəçilər ona və iki qızına bu arzularını yerinə yetirməkdə yardım ediblər.



# TÜRKİYƏDƏ YAŞAYIŞ EVİNİN ALTINDA ASSUR MƏBƏDİNİN İZLƏRİNƏ RAST GƏLİNİB



Arxeoloqlar Türkiyənin Başbuk kəndində yaşayış evinin altında yeraltı məbəd kompleksi aşkar ediblər. Bu barədə "Heritage Daily" xəbər verib.

Yeraltı tikili ev qarətini araşdıran polis tərəfindən aşkar edilib. Bundan sonra təcili arxeoloji qazıntı işləri aparılıb və ikimərtəbəli yaşayış binasının altında qayalarda oyulmuş 30 metrlik tunellər sistemi tapılıb.

Məbəd kompleksi eramızdan əvvəl I minillikdə (e.ə. 934-609) - Assuriyanın müstəqil dövlət kimi son və ən inkişaf etmiş dövründə inşa olunmuşdur. Məbədin divarlarında tanrıların yürüşünü əks etdirən freskalar həkk olunub. Bunlar arasında tufan və yağış tanrısı Hadad, ay tanrısı Sin, məhsuldarlıq və firavanlıq ilahəsi Atargatis var.

Qazıntılar Harran Universitetinin professoru Mehmet Önal, Şanlıurfa Muzeyinin direktoru Cəlal Uludağ, muzeyin mütəxəssisi Yusuf Koyunku və Ankara Sosial Elmlər Universitetindən filoloq doktor Səlim Fərrux Adalı tərəfindən aparılıb.

Doktor Adalının sözlərinə görə, Assuriya imperiyası Cənub-Şərqi Anadoluda siyasi hakimiyyəti əlində saxladığı dövrlərdə hökmdarlar öz güclərini xüsusi Assur saray üslubunda təsvirlərin yayılması ilə ifadə edirdilər. Lakin təsvirləri müşayiət edən yazılar assur dilində deyil, yerli aramey dilindədir. Freskalar isə daha çox Anadolu və Suriyaya xas olan dini mövzuları təsvir edir.

Arxeoloqlar padşah III Adad-nirarinin (e.ə. 811-783) dövründə yaşamış Assur məmuru Mukin-əbuanın adının olduğu güman edilən kitabələrdən birinin şifrəsini aça biliblər. Ola bilsin ki, o, Assur kralının bu bölgədəki valisi olub. Tədqiqatçılar ehtimal edirlər ki, o, yerli əhalinin Assur mədəniyyətinə inteqrasiyası və onları öz tərəfinə çəkmək üçün məbəd kompleksinin tikintisini təşkil etmişdir. Ancaq ibadətgahın yarımçıq qalması Mukin-əbuanın planının müvəffəqiyyətlə nəticələnmədiyindən xəbər verir. Ola bilsin, üsyan və ya hansısa başqa səbəbdən məbədin tikintisi başa çatdırılmamışdır.

Tədqiqatçılar ümid edirlər ki, qazıntıların davam etdirilməsi qədim Assuriya imperiyasının mədəniyyətini və siyasətini daha dərindən öyrənilməsinə imkan verəcəkdir.

# VAMPİRLƏRİ ÖLDÜRMƏK ÜÇÜN QƏDİM DƏST HƏRRACDA REKORD QİYMƏTƏ SATILIB

"Ancient Origins"-in məlumatına görə, qədim vampir öldürmə dəsti İngiltərənin Derbişir şəhərində keçirilən hərracda gözlənildiyindən beş dəfə baha satılıb.

Bir vaxtlar vampirlərdən müdafiə vasitəsi hesab olunan bu əcayib artefakt qutusunun satışı vampir mifologiyasının və mədəniyyətinin populyarlığının hələ də güclü olduğunu sübut edir. XIX əsrin sonlarına aid olduğu düşünülən kilidli qutuda vampirlərdən qoruduğu iddia edilən əşyalar var. Bunlara müqəddəs su, ağcaqovaq payası, Bibliya, xaç, bir cüt tapança, taxta çəkic, təsbeh və hətta mis şamdanlar daxildir.

Bu xüsusi dəst keçmişdə Britaniya Hindistanında qubernator və administrator kimi çalışmış və Afrikada da işləmiş britaniyalı aristokrat Lord Heyliyə aid olub.

"Hansons Auctioneers"-in press-relizində deyilir: "Fransa, Amerika və Kanada da daxil olmaqla, dünyanın hər yerindən müraciətlər daxil olmuşdu. Bu kimi obyektlər həmişə kolleksiyaçıları valeh edir və bunun isə xüsusilə maraqlı mənşəyi var". Hərrac alıcıların amansız müharibəsi ilə başa çatıb və vampir öldürmə dəsti heyrətamiz qiymətə - 15.700 dollara satılıb.

Qəribə səslənsə də, xüsusilə XVIII-XIX əsrlərdə vampirlərə inamın güclü olduğu bir zamanda vampir öldürmə dəstlərinin mövcudluğunda qeyri-adi bir şey yox idi. Ancaq vampirlərə inam və onları öldürməyin müxtəlif üsulları barədə təsəvvürlər çox əvvəllərə gedib çıxır. Vampirə bənzəyən canlılarla bağlı mifologiya Şərqi Avropanın slavyan ölkələrində xüsusilə məşhur idi. Vampirlər haqqında müasir təsəvvürlər isə XVIII-XIX əsrlərdə ədəbiyyatda onların obrazlarının populyarlaşmağa başlaması ilə birlikdə formalaşdı. Henrix Avqust Ossenfelderin "Vampir" (1748) şeiri, Con Polidorinin "Vampir" (1819), Şeridan Le Fanunun "Karmilla" (1871-72) və Brem Stokerin "Drakula" (1897) hekayələri bu qəbildəndir.

# NEFT AXTARIRDILAR, 2000 İLLİK QƏBİRİSTAN TAPDILAR



"Arkeonews" xəbər verir ki, İranda neft qazma işləri zamanı nəhəng küp qəbirlərin olduğu 2000 illik qəbiristan aşkar edilib. Məzarlıq ölkənin cənub-qərbində yerləşən Xuzistan əyalətinin mərkəzi Əhvaz şəhərində Karun çayında neft quyuları qazarkən təsadüfən aşkarlanıb.

Çaydan təxminən 150 metrlik məsafədə yerləşən qəbiristanda qədim insanların qalıqları tapılıb. Arxeoloq Hosseyn Feyzi bildirib ki, qəbirlərin bəziləri bej rəngdə olub, təbii qətranla örtülmüşdür. Mütəxəssisin fikrincə, küp qəbirlər Mitra dininin prinsipləri əsasında tikilmişdir. Dəfn yerinin çayın yaxınlığında olması bu qəbiristanın Mitraizmlə bağlı olduğu fərziyyəsini dəstəkləyir.

Mitraizm Zərdüştilikdən əvvəl İranda günəş, ədalət, müqavilə və döyüş tanrısı olan Mitraya sitayiş dini idi. Eramızın II və III əsrlərində Roma imperiyasında da Mitra kimi tanınan bu tanrı imperiya sədaqətinin himayədarı kimi qəbul edilirdi. Mitraizm IV əsrin əvvəllərində İmperator Konstantin tərəfindən Xristianlığın qəbulu ilə tənəzzülə uğramağa başladı.

İlkin araşdırmalar göstərir ki, qəbiristan Parfiya imperiyası dövrünə (e.ə. 247-224) aiddir. "Tehran Times" qəzetinin yazdığına görə, bu tip küp qəbirlər Neolit dövründə xüsusi olaraq körpələr və azyaşlı uşaqlar üçün nəzərdə tutulurdu. Lakin bu dəfn üsulundan istifadə Parfiya dövründə geniş yayılmışdır.

# BRİTANİYADA ÖLKƏNİN MƏBƏDLƏRİNİ BƏZƏYƏN ORTA ƏSR GÜNƏŞ SAATLARININ UÇOTU APARILIR

Britaniyada mötəbər bir təşkilat tərəfindən ölkənin bütün məbədlərindəki orta əsr günəş saatlarının uçotu aparılır. Bu barədə "The Guardian" məlumat verib.

Bu saatlar bir vaxtlar gündəlik beş ibadət vaxtını təyin etmək üçün istifadə olunurdu və hətta nisbətən buludlu havada belə vaxtı kifayət qədər dəqiq göstərirdi.

Günəşin səmadakı mövqeyinə görə vaxtı təyin etmək, xüsusən də şıltaq havası olan dumanlı Albionda çətin ki, çox etibarlı üsul hesab oluna bilər. Bununla belə, ölkə daxilində orta əsr məbədlərinin divarlarını bəzəyən çoxsaylı günəş saatları onların həmin dövrdə ən yaxşı və çox güman ki, zamanı təyin edən yeganə cihaz olduğunu sübut edir.

Həmin dövrlərdə ibadətlər gündə beş dəfə - sübh vaxtı, sübhlə günorta arasında, günorta, günorta ilə günbatımı arasında və günbatımında yerinə yetirilirdi. Məhz buna görə günəş saatlarının siferblatlarında əsas xətlər öyrəşdiyimiz saatları deyil, ibadət vaxtlarını göstərir ki, möminlər ibadətə nə vaxt toplaşmaq lazım olduğunu bilsinlər. Bu günəş saatları əsasən XII-XVII əsrlərə aiddir və hələ də onları kilsələrin cənub divarlarında görmək mümkündür. Sonralar VIII Henrixin islahatları nəticəsində onlar gərəksiz sayıldı.

Ölkədə günəş saatlarının uçotu, mühafizəsi və bərpası ilə məşğul olan, geniş ictimaiyyət tərəfindən az tanınan "Britaniya Günəş Saatları Cəmiyyəti" (British Sundial Society) fəaliyyət göstərir. Cəmiyyət üzvləri günəş saatlarının reyestrini aparır və mümkün zədələnmə və ya itki halında sonrakı bərpa üçün onların bütün detallarını diqqətlə qeydə alırlar.

Reyestrdə yüzlərlə belə saat var, bəzən hər məbəddə bir neçə saata rast gəlmək mümkündür. Onların bir çoxu siferblatının ortasında bir çubuq qoyulmuş dəliklə təchiz olunmuşdur və oradan kölgə müəyyən edilmiş bir ibadət saatından digərinə tərəf sürüşür.

Dəliklərə uyğun gələn çubuğu yerləşdirmək mümkün olarsa, günəş saatlarının bir çoxu hələ də dəqiq işləyir. Görünür, o zamanlar bu saatlara hansısa müqəddəs və ya simvolik məna yüklənmişdir; əks halda, onlardan bəzilərinin cənub divarlarında deyil, kilsələrin ən gözlənilməz yerlərində tapılmasını başqa cür izah etmək olmazdı. Adətən belə saatlara "ikinci istifadə" daş bloklarında (əvvəlki ibadət binalarının sökülməsindən qalan) və ya o dövrün dini qraffiti yazıları arasında rast gəlinir.



# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

*2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İşğalda olan torpaqlarımızı azad etmək üçün böyük həsrətlə gözləyən xalqımızın növbəti erməni təcavüzünə qarşı göstərdiyi əsrarəngiz reaksiya – Vətənin müdafiəsi və ərazi bütövlüyünün bərpası naminə bir yumruq kimi birləşməsi həm də uzun illər ona edilən haqsızlığa qarşı döyüş ruhunun təcəssümü idi. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq şanlı tarix yazdılar. Ümumiyyətlə, torpağı Vətənə çevirən, onu müqəddəsləşdirən, özlərini bu yolda fəda edənlər şəhidlərdir. Bu səbəbdən onların hər birini tanımaq və tanıtdırmaq cəmiyyət olaraq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzeti 2021-ci ildəki ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.*



## Abdullayev Mərahim Aslan oğlu

Abdullayev Mərahim Aslan oğlu 2002-ci il martın 27-də Şəmkir rayonunun Keçili kəndində dünyaya göz açıb. O, 2008-ci ildə Əhməd Həsənov adına Plankənd tam orta məktəbinin 1-ci sinfinə gedib, 2019-ci ildə həmin məktəbin 11-ci sinfini bitirib. Ailə üzvlərinin, müəllim və sinif yoldaşlarının sevimlisi olan Mərahim uşaqlıqdan cəsurluğu, vətənpərvərliyi ilə seçilib. Şəhidimizin oxuduğu məktəbin direktoru Fənarə Qəhrəmanova onu belə xatırlayır: "Mərahim nizam-intizama uyarlığı ilə yoldaşlarından fərqlənirdi. İdmana meyilli, vətənpərvər uşaq idi, həmişə yaşıdlarına əsgərliyə gedəcəyindən həvəslə danışar və xidmətdən sonra hərbçi kimi Milli Ordu sıralarında qalıb ermənilər tərəfindən işğal edilmiş torpaqlarımızın geri qaytarılması uğrunda mübarizədə iştirak etmək istədiyini bildirərdi".

Mərahim 2020-ci ilin aprelində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Şəmkir rayon şöbəsindən həqiqi hərbi xidmətə çağırılıb. O, Silahlı Qüvvələrin Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidməti borcunu yerinə yetirib. Mərahim minaatan batareyada baş tuşlayıcı olub, intizamı, bacarığı ilə seçilib. Hərbi xidmətinin ilk 5 ayından sonra Vətən müharibəsi başlayıb və o, ön cəbhəyə könüllü olaraq yollanıb.

Mərahim Cəbrayılın, Füzulinin, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşub. Düşmən mərmisinə tuş gəlmiş neçə-neçə yaralı əsgərimizin, şəhidimizin döyüş meydanından təxliyə edilməsində fədakarlıq göstərib. 8 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən gərgin mübarizədə döyüş tapşırığını yerinə yetirən zaman şəhid olub. Qəhrəmanımız hər dəfə ailə üzvləri ilə danışanda "oktyabrda gələcəyəm" deyirmiş. Lakin qayıdan üçrəngli bayrağa sarılmış nəşi olub. Şəhid olmazdan bir gün əvvəl son dəfə ailəsi ilə danışıb. Deyib ki, Ali Baş Komandanın səyi nəticəsində ordumuzun uğurları böyükdür, düşmənin sonuna çıxırıq, az qalıb, qələbə qazanacağıq! Mərahim anadan olduğu Keçili kəndində uğrunda canını fəda etdiyi Vətən torpağına tapşırılıb.

Şəhidimizin atası Aslan fərdi təsərrüfatçı, anası Susanna evdar qadındır. Orxan və İbrahim adlı özündən böyük iki qardaşı var.

Cəsurluğu və şücaəti ilə adını tariximizin şanlı səhifəsinə əbədi yazan əsgər Abdullayev Mərahim Aslan oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.



## Abdullayev Nicat Mirnəbi oğlu

Abdullayev Nicat Mirnəbi oğlu 1995-cı il sentyabrın 4-də Saatlı rayon Seyidlər kəndində doğulub. İlk təhsilini Saatlı rayonunda Səməd Vurğun adına məktəbdə alıb. Sonradan Bakıya köçdüyü üçün təhsilini Sulutəpə qəsəbəsində yerləşən Laçın rayon 10 nömrəli tam orta məktəbdə davam etdirib.

Musiqiyə böyük həvəsi olan Nicat, eyni zamanda, Xırdalanda saz ixtisası üzrə musiqi məktəbini bitirib. O, 2013-cü ilin oktyabrında SHXÇDX-nin Saatlı rayon şöbəsindən həqiqi hərbi xidmətə çağırılıb. Nicat Silahlı Qüvvələrin Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmət edib. Ailə üzvlərinin, müəllim və sinif yoldaşlarının sevimlisi olan Nicat uşaqlıqdan cəsurluğu, vətənpərvərliyi ilə seçilib. Elə bu xüsusiyyətlərinə görə, hərbi xidmətini də də nümunəvi əsgər kimi başa vurub. Daha sonra isə musiqi sahəsində çalışmağa başlayır, toylarda, el məclislərində çıxış edir.

2020-ci ilin 12 iyulunda düşmənin təxribatı nəticəsində Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində gedən şiddətli döyüşlər bir çoxu kimi Nicatın da həyatının dönüş nöqtəsi olub. Milli Qəhrəman general-mayor Polad Həşimovun şəhadətindən sonra o, SHXÇDX-nin Saatlı rayon şöbəsinə könüllü olaraq xidmət etmək üçün müraciət edib.

2020-ci ilin sentyabrın 21-də hərbi təlimlərə qatılan qəhrəmanımız Vətən müharibəsinin ilk günü könüllü olaraq cəbhəyə yollanıb. O, Füzulidə, Cəbrayılda döyüş yolu keçib. Oktyabrın 9-da Füzuli istiqamətində gedən ağır döyüşlərdə şəhidlik zirvəsinə ucalan Nicat oktyabrın 29-da Saatlı rayon Seyidlər kəndində dəfn olunub.

Şəhidimiz subay idi.

İgidliyilə adını tariximizin şanlı səhifəsinə əbədi yazan əsgər Abdullayev Nicat Mirnəbi oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.



## Abdullayev Nihat Adil oğlu

Abdullayev Nihat Adil oğlu 2002-ci il aprelin 13-də Ağstafa rayonunda anadan olub. O, 2008-ci ildə Ağstafa şəhər 1 nömrəli məktəbin 1-ci sinfinə gedib, 2019-ci ildə həmin məktəbin 11-ci sinfini bitirib. O, 2020-ci ilin aprelində SHXÇDX-nin Ağstafa rayon şöbəsindən həqiqi hərbi xidmətə çağırılıb. Nihat Silahlı Qüvvələrin "N" saylı hərbi hissəsində 6 ay xidmət etdikdən sonra 2020-ci ilin sentyabrın 27-də müharibənin ilk günündən döyüşlərə qatılıb.

O, Füzuli, Cəbrayıl, Hadrut, Xocavənd uğrunda döyüşlərdə xüsusi fədakarlığı ilə seçilib. Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə mətinlik və mərdlik göstərərək vuruşan Nihat 44 günlük müharibənin 43-cü günündə - 2020-ci ilin noyabrın 8-də Xocavənd rayonu ərazisində növbəti döyüş tapşırığını yerinə yetirərkən yaxınlığına düşən minaatan mərmisindən şəhid olub. Nihat noyabrın 11-də Ağstafa şəhər Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Şəhidimiz subay idi.

Qorxmazlığı və şücaəti ilə adını Vətən tariximizin şanlı səhifəsinə əbədi yazan əsgər Abdullayev Nahit Adil oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Hazırladı: **Ramil HİKMƏT**

# İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI - 2020

## QAHİRƏ

Qahirə Misirin paytaxtı və Afrikanın ən böyük şəhərlərindən biridir. Əhalinin sayına görə dünyanın 6-cı ən böyük paytaxtıdır. Təxminən 20.5 milyon sakini olan Qahirə Nil deltasının sahilində yerləşir. Giza piramida kompleksi, qədim Memfis və Heliopol şəhərlərinin Qahirə ərazisində olması şəhər tarixinin qədimə dayandığını göstərir. Misir 641-ci ildə müsəlmanlar tərəfindən fəth edildikdən sonra indiki Qahirə yaxınlığında Fustat adlı qəsəbə salınmışdır. Lakin 969-cu ildə Fatimilər sülaləsi Misiri tutduqdan sonra Fustat yaxınlığında yeni şəhər olan Qahirənin əsası qoyuldu.

Qahirənin tarixi memarlığı, əsasən, dörd dövlətin adı ildə bağlıdır. Fatimilər, Əyyubilər, Məmlüklər və Osmanlılar. Hər dövlətin hakimiyyət illərində Qahirə daha da böyümüş və biri-birindən yaraşıqlı tarixi abidələrlə bəzədilmişdir. Şəhərdə Raşidi xəlifələrin və Abbasilərin dövründə inşa edilən tarixi abidələrə də rast gəlmək mümkündür. Şəhər Yaxın Şərqin, eləcə də İslam dünyasının bütün mədəniyyətini, memarlıq irsini özündə birləşdirir. Qahirə ilboyu turist axınını qarşılayan şəhərlərdən biridir. Şəhərin tarixi mərkəzi 1979-cu ildə YUNESKO-nun Ümumdünya İrs siyahısına daxil edilmişdir.

Qahirənin ən məşur tarix memarlıq abidələrindən biri İbn Tulun məscididir. Məscid Abbasilər dövründə Misirə vali təyin edilən Əhməd ibn Tulun tərəfindən 876-879-cu illər arasında tikilmişdir. Misirdə ən qədim məscid raşidi xəlifələr dövründə tikilən Əmr ibn As məscidi olsa da, bu gün orijinal formasını qoruyub saxlayan ən qədim məscid İbn Tulun məscididir. Tamamilə kərpiclə tikilmiş məscid memarlıq və dekorasiyasının böyük bir hissəsi ilə Abbasi ənənəsini, xüsusilə də Samərra üslubunu özündə əks etdirir. Bina 161,5x162,25 m divarlarla əhatə olunmuş müdafiə qalasını xatırladır. Çöl həyəti qiblə istiqamətində yerləşir. Məscidin ölçüsü ortada təqribən 92x92 m-dir. Məscidin minarəsi XIII əsrdə ucaldılmışdır. Məscidə bitişik tikilən minarə şəhərin digər minarələrinə bənzəmir. Məscidin daxili memarlıq nümunələri - sütunlar, kaşı ornamental bəzəklər, pəncərələr arasındakı məsafələr, karnizlər və s. relyef stilizə olunan nəbati ornamentlə tərtib olunmuşdur. İbn Tulun məscidi tarix boyu müharibələrdə dəfələrlə dağıntıya məruz qalmış və sonradan bərpa olunmuşdur.

Məscid uzun müddət Qərbi Afrika ölkələrindən Məkkəyə, Qüds və Bağdada ziyarətə gedən zəvvarlar üçün dayanacaq məntəqəsi olub. Bu gün də İbn Tulun məscidi Qahirədəki çoxsaylı məscidlər arasında öz qədimliyi və möhtəşəmliyi ilə seçilir. Orta əsr ərəb memarlığının abidəsi kimi dünyada tanınır.

Dünyaca məşhur, Misirdə Fatimilər dövründə tikilən memarlıq abidələrinin xüsusiyyətlərini özündə birləşdirən əl-Əzhər məscidi Fatimi hökmdarı əl-Muiz Lidinillahın tapşırığı ilə 970-972-ci illərdə cümə məscidi kimi inşa edilmişdir. Qaynaqlarda məscidin adının Məhəmməd peyğəmbərin (s) qızı Fatimənin ləqəbi olan Zəhra (çox gözəl və çox parlaq) sözündən götürüldüyü deyilir. Məscid tikilərkən hazırkı ölçüsündən daha kiçik, açıq həyət ətrafında qiblə istiqamətində əsas ibadət zalından və korinf sütunlar üzərində tağ şəkilli iki tərəfli eyvanlardan ibarət olmuşdur.

Əl-Əzhər məscidində ilk təmir işləri üçüncü Fatimi xəlifəsi əl-Həkim tərəfindən aparılmışdır. Xəlifə minarə ilə birlikdə binanın bəzi hissələrini təmir etdirmiş, həyəti dörd tərəfdən əhatə edən yeni eyvanlar tikdirmiş və içərisində kufi xəttatlığı ilə yazılmış müxtəlif beytlərdən ibarət olan bir qübbə əlavə etdirmişdir.

Qahirədə baş verən hakimiyyət dəyişikliyi mədəniyyətə, eləcə də memarlıq abidələrinə yaxşı və pis mənada təsir göstərmişdir. Fatimilər zamanında qızıl dövrünü yaşayan və elm mərkəzinə çevrilən əl-Əzhər məscidi ən pis dövrünü Fatimilərdən sonra Qahirəni ələ keçirən Əyyubilər dövründə yaşamışdır. Səlahəddin Əyyubi burada cümə namazının qılınmasını qadağan etmişdir. Bu dövrdə məscid baxımsızlıqdan dağıntılara məruz qalmışdır.

Məscid ikinci baharını Məmlüklər dövründə yaşamışdır. Bu dövrdə məscidin divarları, tavanı, sütunları yenidən təmir edilmiş, yeni minarə və minbər tikilmiş, məscid bəzədilərək əvvəlki füsunkarlığı qaytarılmışdır. Bundan



sonra məsciddə yenidən cümə namazları qılınmağa başlanılmışdır. Dövlət xadimlərinin əl-Əzhərə xüsusi əhəmiyyət verməsi onun xalq qarşısında dəyərini artırmış, onu əməlisalehlərin, ibadət edənlərin, sufilərin toplaşdığı mərkəzə çevirmişdir. Əl-Əzhər Məmlüklər dövründə canlanması ilə əvvəlki ictimai nüfuzunu qaytarmışdır.

Əl-Əzhər Fatimilər dövründən başlayaraq elm mərkəzinə çevrilmişdir. Bu proses Məmlüklər dövründə daha da vüsət almışdır. Həmin dövrdə məscid ətrafında bir neçə mədrəsə, kitabxana və təhsil almağa gələn tələbələr üçün yataqxanalar inşa edilmişdir. Nəticədə İslam dünyasının ən qədim universitetlərindən biri sayılan əl-Əzhər Universiteti formalaşmışdır. Artıq 1000 ildir ki, bu universitet İslam elmlərini öyrənir, tədris edir və müsəlman dünyasının mötəbər elm, din, mədəniyyət mərkəzi olaraq qalır. İslam dünyasına böyük alimlər bəxş edən bu elm ocağı 1964-cü ildən dünyəvi elmlər də tədris etməyə başlamışdır. Hazırda Universitet 81 fakültə, 9 institut, 359 akademik şöbə, 42 mərkəz, 6 universitet xəstəxanası və 27 ümumi idarəetmə bölməsindən ibarətdir. Əl-Əzhər Universitetinin əsas tematik istiqamətləri elm və texnologiya, idarəetmə və biznesin idarə edilməsi, incəsənət, dillər və humanitar elmlər, kənd təsərrüfatı, stomatologiya və tibbdir. Universitet hər il 100-dən çox ölkədən 30000 tələbə qəbul edir.

Fatimilər dövründə inşa edilən daha bir memarlıq abidəsi əl-Həkim məscididir. Tikintisi 990-cı ildə Fatimi hökmdarı əl-Əzizin göstərişi ilə başlamış, xəlifə əl-Həkimin dövründə - 1013-cü ildə yekunlaşmışdır. Məscid düzbucaqlı formada olub geniş həyətə sahibdir. Görünüş etibari ilə əl-Əzhər və Əməvi məscidinə bənzəyir.

XIX əsrə qədər Əyyubilər, Məmlüklər və Osmanlılar dövründə dövlət adamlarına ev sahibliyi edən Qahirə qalası (Əyyubi qalası) tarixi məscidləri və muzeyləri ilə yerli və xarici ziyarətçilərin tez-tez ziyarət etdiyi məkanlardan biridir. Səlahəddin Əyyubinin göstərişi ilə 1171-ci ildə Əyyubilər dövründə inşasına başlanan tarixi qala yerləşdiyi yerə görə bütün Qahirəni quşbaxışı ilə görmək imkanı tanıyır. Tikintisi tamamlana bilməyən və Səlahəddin Əyyubinin ölümündən sonra yarımçıq qalan qala 1207-ci ildə Sultan Kamil ibn Adil dövründə tamamlanmışdır. Tarixi bina Osmanlıların Misir və Sudan hakimi İsmayıl Paşa dövrünə qədər ölkənin idarə olunduğu mərkəz nöqtəsi olma xüsusiyyətini qoruyub saxlamışdır. Əyyubi qalasının içərisində hər küncündə tarixin müxtəlif dövrlərinin izlərini daşıyan Süleyman Paşa məscidi, Məhəmməd Əli paşa məscidi, ən-Nasir məscidi, Sultan Həsən məscidi, ər-Rifai məscidi kimi tarixi abidələr mövcuddur.

1346-47-ci illərdə Qahirədə tikilmiş Məmlük dini memarlığının ən mükəmməl nümunələrindən biri Ağsunqur məscidi Sultan ən-Nasir Məhəmmədin əmiri Ağsunqur tərəfindən tikilmişdir. Osmanlı dövründə 1652-ci ildə İbrahim Ağa tərəfindən hərtərəfli bərpa olunduğu üçün məscidə İbrahim Ağa məscidi vəya məscidə özünəməxsusluq verən mavi çinilərinə görə Göy Məscid də deyilir. Məscidin içərisində 1345-ci ildə vəfat etmiş Məmlük sultanı Ələhəddin Kiçiyin də məzarı var.

XIV əsrdə hakimiyyətdə olmuş Misir məmlük dövlətinin sultanı ən-Nasir Nasirəddin (və ya Bədrəddin) əl-Həsənin inşa etdirdiyi Sultan Həsən məscidinin təməli 1356-cı ildə qoyulmuşdur. Tikintidə xeyli məşhur memar və sənətkar iştirak etmişdir. Tarixçilərin məlumatına əsasən, inşaat işlərinin hər günündə 20-30 min gümüş dirhəm sərf olunmuşdur. Məscidin interyerinin bəzədilməsində Misirin ən yaxşı həkkakları, zərgərləri, nəqqaşları çalışmış və altı ildən sonra inşaat başa çatmışdır. Məscid təkcə ibadət üçün deyil, həm də tədris mərkəzi kimi nəzərdə tutulmuşdur. Məscid dördbucaqlı formada inşa edilmişdir. Əsas fasadın uzunluğu 100 metrdir. Məscidin həyətində dəstəmaz almaq üçün böyük hovuz mövcuddur. Bu hovuzun üzərində gözəl işləməli günbəz inşa edilmişdir. Onun hündürlüyü 48 metr, diametri isə 21 metrdir. Məscidin ümumi sahəsi 7906 kvadrat metrdir. Məscidin iç divarları üzərində gözəl bitki ornamentləri nəqş edilmişdir. Həmçinin mərmərdən hazırlanmış mozaik işləmələr və taxta naxışlar mövcuddur. Məscidin qapıları da nəfis hazırlanmışdır. Onun əsas qapısı hazırda Qahirə şəhərinin əsas məscidində yerləşir. Məscidin son bərpası XVII əsrin sonlarına aiddir. Həmin dövrdə günbəz və minarələr bərpa edilmiş, məscid yenidən öz görkəminə qaytarılaraq, dindarların istifadəsinə verilmişdir. Sultan Həsən məscidi bu gün Qahirənin ən əsas dini abidələrindəndir.

Osmanlı dövründə Misir hakimi Məhəmməd Əli paşa tərəfindən 1830-1848-ci illərdə qalada öz adını daşıyan məscid tikdirmişdir. Məhəmməd Əli paşa məscidi həmçinin iqamətgah kimi istifadə edilmişdir. Məscid memarlığı və oyma bəzəklərinin zənginliyi ilə fərqlənir. Osmanlı dövründə Misirdə məscidlərin əksəriyyəti türk memarlığı üslubunda - böyük, yarımdairəvi günbəzlər, şişuclu minarələrlə inşa edilirdi. Məhəmməd Əli məscidi İstanbuldakı tarixi Ayasofiya məbədinə oxşar inşa edilmişdir. Burada eyni vaxtda beş minədək adam namaz qıla bilər.

Bunlardan əlavə, Misirin müxtəlif dövrlərində inşa edilən Lulua, Cüyuşi, əl-Hüseyn, Əqmər, Seyyidə Rüqəyyə, əl-Salih Təlai, əl-Zahir Baybars, Qalavun kompleksi, Əmir əl-Mərdani, Sultan Bərquq, Mahmud əl-Kürdi, Əmir Camaləddin əl-Ustadar, Qanibəy əl-Məhəmmədi, Sultan əl-Müəyyad, əl-Əşrəf, Sinan Paşa, əl-Sayeda Zeynəb, əl-Fəth məscidləri bu gün də ziyarətə açıqdır.

Qahirənin tarixi ilə maraqlananları cəlb edən daha bir əsərəngiz yer Misirin ən böyük Milli Muzeyi olan Qahirə muzeyidir. Qədim Misirin bütün dövrlərinə aid 160 min eksponatın nümayiş etdirildiyi bu nəhəng muzeyin əsası 1858-ci ildə qoyulmuşdur. Qədim Misir artefaktları dəfələrlə qarət edilmiş, London və digər şəhərlərin muzeylərinə aparılmışdır. Bunun qarşısını almaq məqsədilə Qahirənin Bulak rayonunda tikilmiş xüsusi anbar sonralar muzeyə çevrilmişdir. Bütün bu işlərə fransız arxeoloqu Oqüst Mariet rəhbərlik etmişdir. Artıq 1863-cü ildə Nil çayının sahilində böyük muzey binasının açılışı olmuşdur. Binanın birinci mərtəbəsində Qədim Misirin fironlara qədər olan dövrünə aid 30 min eksponat var.

Ən qiymətli eksponatlar isə muzeyin ikinci mərtəbəsindədir. Məhz burada Tutanxamonun qızıldan olan 12 kiloqramlıq dəbilqəsi, habelə qiymətli əşyalar nümayiş etdirilir. Misir fironlarının XX sülaləsinə qədər olan dövrün eksponatları arasında Qədim Roma, yunan, latın və ərəb papirusları da var. Muzeydə fironların və ailə üzvlərinin sarkofaqları, mumiyalar da saxlanılır. Onların vəziyyəti vaxtaşırı olaraq laboratoriyada yoxlanılır.

Qahirə 2020-ci ildə İslam mədəniyyəti paytaxtı seçilmişdir.

Hazırladı: **Tural Vəlizadə**

# ABŞ-DƏ ZƏRDÜŞTİLƏRİN ÜMUMDÜNYA KONQRESİ KEÇİRİLİB



İyulun 1-4-də ABŞ-də zərdüştilərin növbəti Ümumdünya Konqresi keçirilib. Onlar 3000 illik dinlərinin bu günü və gələcəyini müzakirə ediblər. Bu barədə "apnews" xəbər verib.

Zərdüştilik ən qədim və keçmişdə ən nüfuzlu dinlərdən biri hesab olunur. Bu gün dörd qitədə çox fəal zərdüşti icmaları var. Ancaq onların öz hesablamalarına görə, dünyada ümumi sayları azalaraq təxminən 125 min nəfərə düşüb.

Nyu-York Ümumdünya Zərdüştilik Konqresi (World Zoroastrian Congress) ABŞ-də 2000-ci ildən keçirilir. Bu 12-ci Konqresdə 16 ölkədən 1200-ə yaxın nümayəndə öz inanclarının perspektivlərindən danışıblar.

Zərdüştilik təlimi xeyirlə şər arasında əbədi döyüşə istinad edir - onlar xeyir tanrısı Ahura Məzda və şər tanrısı Əhrimanda təcəssüm olunur. Zərdüşt həyatı ancaq yaxşı fikirlərə, yaxşı sözlərə və yaxşı əməllərə həsr etməyə çağırır. Zərdüştilik təliminə görə, insanlar Ahura Məzdaya sitayiş etmək və xeyirin şər üzərində son qələbəsini yaxınlaşdırmaqla xeyirxah ruha kömək etmək üçün yaradılmışdır. Ona görə də insan hər bir əməl və düşüncəsində ümumbəşəri xeyirxahlıq qanununa əməl etməli, yalan, pislik və məhvdən imtina etməlidir.

Müasir dövrdə zərdüştilər kiçik icmalar şəklində yalnız İranda, Hindistanda və İraq Kürdüstanında, eləcə də Qərb və postsovet ölkələrində (əsasən Tacikistanda) yaşayır. Zərdüştilik Hindistan, İran, ABŞ, Azərbaycan və Özbəkistanda tanınan dinlər sırasındadır. Bir çox zərdüşti Hindistanın qərbində, Mumbay və Qucaratda təqiblərdən qaçır. Orada onlar parsi adlanır, icmaları isə digər ölkələrdən daha böyükdür.

XIX əsrin ən məşhur zərdüştilərindən biri 1839-cu ildə Hindistanda anadan olmuş, tanınmış sənayeçi və xeyriyyəçi, ən böyük transmilli "Tata Group" şirkətinin yaradıcısı Jamsetji Tata olmuşdur. Digər inkişaf etmiş şirkət "Wadia Group" 1736-cı ildə parsi gəmi istehsalçısı Lovji Vadia tərəfindən təsis edilmişdir. O, hələ də Böyük Britaniyada hərbi gəmilər inşa edir. Onun aktivlərinə moda jurnalı, kriket komandası, tekstil fabrikləri və çörək sexləri də daxildir. Ancaq dövrümüzün ən məşhur parsisi iş adamı deyildi, bu, 1946-cı ildə Qucaratdan köçərək Zənzibarda məskunlaşmış mühacir ailəsində anadan olan, əsl adı Farrox Bulsara olan, "Queen" rok qrupunun əfsanəvi vokalisti Freddi Merkuri idi.

Nyu-Yorkdakı konqres iştirakçıları zərdüşti icmasının azalmasından narahatlığını bildiriblər və bu istiqamətdə gələcək planlardan danışıblar. Bundan başqa, sahibkarlıq, dinlərarası əməkdaşlıq və qadınların rolu kimi mövzular da müzakirə olunub.

Konqresin həmsədri, Nyu-Yorkda yaşayan Mumbay əsilli memar Arzan Sam Vadia dini inanclarını gücləndirmək məqsədi daşıyan iki layihəyə rəhbərlik edir. Bu layihələrdən biri Zərdüştiliyin bütün dünyada artması və azalmasının arxasında duran amilləri müəyyən edən London Universitetinin SOAS qlobal araşdırmasına əsaslanır. Həmçinin Vadia inanclarının tarixi və mədəniyyəti haqqında daha çox öyrənmək istəyən zərdüşti gənclər üçün Hindistana səfərlər təşkil edən "Zərdüştilərin Köklərinə Qayıtması" proqramına rəhbərlik edir. Vadia əmindir ki, inancları ciddi dəyişikliklərə məruz qalsa belə, sağ qalacaqdır. İndiana Universitetinin Mərkəzi Avrasiya tədqiqatları üzrə professoru Cəmşid Çoksi isə Şimali Amerikanı Zərdüştiliyin inkişafı üçün ən perspektivli region hesab edir.

# ABŞ-DƏ KİLSƏ İLƏ DÖVLƏT ARASINDAKI "DİVAR" ÇAT VERMƏYƏ BAŞLAYIR



ABŞ-də Kilsə ilə dövlət arasındakı "divar" çat verməyə başlayır: artan dini müxtəlifliyə və dünyəvi cəmiyyətə baxmayaraq, Ali Məhkəmə prixod mənsubları, vəsait və ictimai təsir uğrunda mübarizələrində kilsələri getdikcə daha çox dəstəkləyir. Bu barədə "Washington Post" yazır.

Hazırkı müzakirələr ABŞ Konstitusiyasına Birinci Düzəlişin iki ziddiyyətli müddəası ətrafında cərəyan edir. Belə ki, təsisat qaydaları barədə olan bənd hakimiyyət orqanlarına konkret bir dini təsis etməyi (yaymağı) qadağan edir. Dini etiqad azadlığı bəndi isə vətəndaşların öz əqidəsini, o cümlədən dövlət sektorunda sərbəst ifadə etmək hüququnu qoruyur. Bu normalar nəyi ifadə edir, onları necə uzlaşdırmaq və nə dərəcədə tətbiq etmək lazımdır - bütün bunlar şərh məsələsidir, onlar isə xüsusilə Ali Məhkəmə tərəfindən daim dəyişir və bu hal son on ildə daha tez-tez baş verir. Məhkəmə getdikcə dini etiqad azadlığını daha çox qoruyur və aşağı instansiya məhkəmələrinin dinin təsisat qaydaları barədə olan bəndi əsasında bu azadlığı məhdudlaşdıran qərarlarını ləğv edir.

"Kilsə ilə dövlətin ayrılması" anlayışını Tomas Cefferson Virciniya ştatında dini etiqad azadlığı ilə bağlı məktubunda təqdim etmişdi. O, "hər hansı konkret dinə dövlət dəstəyinin vətəndaşların təbii hüquqlarını pozduğunu" bildirərək məşhur Birinci Düzəliş qaydasının əsasını təşkil etmişdir.

Ali Məhkəmə bu yaxınlarda Men ştatında dini məktəbdə oxumaq üçün vergi ödəyicilərinin pul ödəməsinə icazə vermişdi, daha sonra isə bir futbol məşqçisinin oyundan əvvəl tələbələri ilə birlikdə dua etmək hüququnu müdafiə etmişdi. Halbuki Birinci Düzəliş hakimiyyət orqanlarına dini "təsis etmək" cəhdini qadağan edir, Ali Məhkəmə isə bu qaydaya açıq şəkildə məhəl qoymur və bununla da "Pandora qutusunun" ağzını açaraq kilsə ilə dövləti ayıran divarı aşındırmağa davam edir.

Rəy sorğuları göstərir ki, amerikalıların əksəriyyəti Kilsə ilə dövlətin ayrılmasını dəstəkləyir. Bununla belə, siyasi baxışlardan və inanclardan asılı olaraq bu konsepsiyanın mahiyyətinə münasibət çox dəyişir. Belə ki, "Pew" Araşdırma Mərkəzinin keçən ilin payızında keçirdiyi sorğu göstərdi ki, amerikalıların 19%-i bu müdaxiləçi bölgüyə qarşıdırlar; 30% özlərini "sadiq xristian" hesab edir; respublikaçıların 27%-i inanır ki, Kilsə ilə dövlətin ayrılmasını dayandırmağın vaxtı çatıb; demokratlar arasında bu göstərici 14% təşkil edir. Digər tərəfdən, fəal azlıqlar, o cümlədən kiçik xristian təriqətləri məşqçinin dua etmək hüququnu müdafiə edən məhkəmə qərarına qarşı çıxıblar, çünki bu, onların fikrincə, tələbələrinin vicdan azadlığını pozur.

# DAĞ YƏHUDİLƏRİ BARƏDƏ FİLM ÇƏKİLİR

Azərbaycanda Oğuz rayonunun dağ yəhudiləri ilə bağlı "Oğuz yəhudiləri" adlı yeni sənədli filmin çəkilişlərinə başlanılıb. Azərbaycan və İsrail kinematoqrafçılarının birgə işi olan filmin ssenari müəllifi və rejissoru Rüfət Əsədov, filmin İsrail tərəfdən prodüseri hazırda İsraildə yaşayan, əslən Azərbaycandan olan tanınmış diaspor fəalı və şair Şaul Siman-Tovdur.

Filmin çəkilişləri Azərbaycanda və İsraildə aparılacaq. Film Oğuz rayonunda məskunlaşmış dağ yəhudilərinin tarixi haqqındadır. Rüfət Əsədov dağ yəhudilərindən bəhs edən budəfəki ekran əsərinin qəhrəmanı İsraildə yaşayan, əslən Oğuz rayonundan olan həmvətənimiz ravvin Şmuel Simantovdur. Filmdə Oğuz rayonunda məskunlaşmış dağ yəhudilərinin tarixi, həyat tərzi Şmuel Simantovun dilindən nəql edilir.

Qeyd edək ki, ravvin Şmuel Simantov illərdir Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində yorulmadan çalışır.

Sözügedən film Rüfət Əsədovun dağ yəhudiləri ilə bağlı altıncı filmidir ( "Quba yəhudiləri", "Kənddə sonuncu yəhudi", "Peyğəmbər Yereminin göz yaşları", "Əgər səni unutsam, Yerusəlim", "Kənddə sonuncu yəhudi. 9 il sonra").

# MAUTHAUZEN HƏBS DÜŞƏRGƏSİNİN YERİNDƏ PRAVOSLAV SOVMƏƏSİ TİKİLİB



"religion.orf.at" xəbər verir ki, Avstriyada keçmiş Mauthauzen həbs düşərgəsinin ərazisində Serb Pravoslav Kilsəsinin xatirə kapellasının tikintisi başa çatıb.

Müqəddəs Yeni Serb Əzabkeşləri sovməəsinin ilk daşı 2016-cı ildə qoyulmuşdu. 2020-ci ildə kilsə binasının tikintisi başa çatmışdı. Binanın daxili dekorasiyasının hazır olması isə iki il çəkdi - divarlarda freskalar hazırlandı və ikonostas (pravoslav kilsəsində: ikonaların asıldığı divar) quraşdırıldı. Ancaq Serb Pravoslav Kilsəsinin nümayəndələri kapellanın təqdis olunma tarixini hələlik açıqlamayıblar. İlkin məlumatlara görə, bu, payızda baş tutacaq.

Mauthauzen düşərgəsi İkinci Dünya Müharibəsindən çox əvvəl yaranıb. 1914-cü ilin sentyabrında Birinci Dünya Müharibəsinin əvvəllərində bu yerdə hərbi əsir düşərgəsinin tikintisinə başlanılıb. Düşərgədə 40 minə yaxın serb, rus və italyan məhbus var idi.

Mauthauzen konslageri 1938-ci ildə Avstriyanın Üçüncü Reyxə daxil olmasından sonra öz "işini" bərpa etdi. İkinci Dünya Müharibəsi başa çatdıqdan sonra isə onun yerində xatirə muzeyi yaradılmışdı. Keçmiş düşərgənin ərazisində 20-dən çox abidə, eləcə də düşərgənin qurbanlarına, müxtəlif etnik, siyasi, sosial, dini və digər qrupların nümayəndələrinə həsr olunmuş 40-dan çox xatirə lövhəsi ucaldılıb. Mauthauzen hərbi qəbiristanında düşərgə əsirləri - Birinci Dünya Müharibəsinin 10845 və İkinci Dünya Müharibəsinin 5212 qurbanı dəfn olunub.

# METYU PARİSİN “MÜQƏDDƏS OLBANIN KİTABI” ƏSƏRİ RƏQƏMSALLAŞDIRILIB



“The history blog”-un verdiyi xəbərə görə, Dublindəki Triniti Kollec Kitabxanası kolleksiyasındakı orta əsrlərin şah əsərlərindən birini - “Müqəddəs Olbanın Kitabı” əsərini rəqəmsallaşdırıb. Kitab parisli salnaməçi, katib və illüstrator Metyu tərəfindən əl ilə yazılmış və şəkillər çəkilmişdir.

Kitabın üz qabığı və mətni əvvəllər yalnız 1924-cü ildə hazırlanmış, orijinalın canlı rənglərini əks etdirə bilməyən ağ-qara faksimil nəşrdə mövcud idi.

İngiltərədə anadan olan Metyu Paris hələ yeniyetmə yaşlarında Hertfordşirdəki Sent-Olbans benedikt abbatlığında rahib kimi monastır həyatına başlamışdır. O, 1217-ci ildən 1259-cu ildə ölümünə qədər Sent-Olbansda yaşamış və burada özünün bütün məşhur əsərlərini, o cümlədən “Müqəddəs Olbanın Kitabı” (təxminən 1230-1259-cu illər) yazmışdır.

Onun “Parisli” (lat. Parisiensis) ləqəbini niyə aldığı dəqiq məlum deyil. Ola bilsin ki, o, gəncliyində Paris Universitetində oxumuşdur, ya da bu ləqəb ingiliscə “Paris” soyadının latınlaşmış formasıdır.

Müqəddəs Olban (ya da Alban) IV əsrdə yaşamış ilk ingilis xristian əzabkeşidir. Ona həsr olunmuş monastır VIII əsrin sonlarında Mersiya kralı Offa tərəfindən təsis edilmişdir. Bura orta əsrlərdə İngiltərənin zadəganlarını və aristokratiyasını özünə cəlb edən mühüm ziyarət yeri idi. Abbatlıq, hətta kral sarayının qadınlarına yaşayış yeri təklif edirdi. Bu, İngiltərədə bunu edən yeganə monastır evi idi.

Müqəddəs Amfibol (bəzi mənbələrə görə, Olbana Xristianlığı qəbul etdirən adam) barədə rəvayətin və abbatlıq tarixinə aid digər yazıların da yer aldığı “Müqəddəs Olban Kitabı” 54 illüstrasiya və 77 vərəqdən ibarətdir.

Metyu Parisin rəsmləri səhifənin yuxarı hissəsinin üçdəbirini tutur. O, rəsmlərini yaşıl, qırmızı, mavi, gümüş və qızılı xətlərlə vurğulayaraq təkmilləşdirmişdir. Əlyazmadakı rənglər parlaq şəkildə qorunub saxlanılmışdır. Hər bir səhnə dinamik hərəkətdə olan insan fiqurları ilə doludur və bunlar təkcə müqəddəslər, padşahlar əlavələr deyil. Metyu illüstrasiyalarına həyatın bütün təbəqələrindən olan insanları - dənizçiləri, əsgərləri, zəng çalanları, inşaatçıları və s. daxil etmişdir. Mətn həm dünyəvi hakim təbəqənin dili olan ingilis-norman fransız dilində, həm də ruhanilərin dili olan latın dilində yazılmışdır.

# AVROPA RAVVİNLƏRİ KONFRANSININ İCRAÇI DİREKTORU QUBAYA SƏFƏR EDİB



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Avropa Ravvinləri Konfransının icraçı direktoru və aparat rəhbəri Qadi Qroniçin rəhbərlik etdiyi nümayəndə heyəti Quba rayonuna səfər edib.

Səfərdə Avropa Ravvinləri Konfransının hüquq departamentinin rəhbəri Şorena Mikava, Bakı Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Gürcü Yəhudilərinin Bakı dini icmasının sədri Zamir İsayev, DQİDK-nın əməkdaşı Səfər Səfərli iştirak ediblər.

Qonaqlar dağ yəhudilərinin yığcam şəkildə məskunlaşdıqları Qırmızı qəsəbədə sinaqoqlarla və Ümumdünya Dağ Yəhudilərinin Tarix-Etnoqrafiya Muzeyi ilə tanış olublar.

# AUQSBURQDAKI MƏŞHUR SİNAQOQ YENİDƏN QURULACAQ

Auqsburq sinaqoqu nasist terroru nəticəsində zərər çəkməmiş yəhudi məbədlərindən biridir. Buna görə də Almaniyanın yəhudi tarixinin görkəmli rəmzlərindən sayılır. Sinaqoq 1917-ci ildə, Birinci Dünya müharibəsinin şiddətli vaxtında tikilib.

Bu gün sinaqoq ibadət yeri olmaqla bərabər, həm də muzey və ictimai mərkəz kimi fəaliyyət göstərir. Sinaqoq Halderştrasda, Köniqsplas mərkəzi meydanı ilə Auqsburq dəmiryol vağzalı arasında yerləşir.

Auqsburq sinaqoqunun yenidən qurulması planlaşdırılır. Təmirin dəyəri təqribən 23 milyon avro olacaq. Xərclərin yarısını federal hökumət ödəyəcək. Müstəqil Bavariya dövləti təqribən 8 milyon avro, Auqsburq şəhəri isə yarım milyon avroya yaxın subsidiya verəcək. Qalan məbləği yəhudi icması ianələr hesabına toplamalıdır.

Təmir işlərinin rəsmən başlanması mərasimində Auqsburq-Şvabiya yəhudi icmasının prezidenti Aleksandr Mazo çıxış edərək bu binanın tarixi barədə qısa məlumat verib. Onun sözlərinə görə, sinaqoq və muzey şəhərin ictimai həyatının mühüm elementləri, Auqsburqun şəhər peyzajının ayrılmaz tərkib hissəsidir.

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR (DİNİ QURUMLARIN DÖVLƏT REYESTRİ) MƏLUMATLARI

**“Lənkəran rayonu Lüvəsər kənd məscidi” dini icması**

Qeydiyyat tarixi: 20 aprel 2016-cı il

Qeydiyyat №-si: 100116C – 627

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əskərov Asif Zöhrab oğlu, Nəhmətov Nəsrəddin Əşrəf oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Qurbanov Möhübbət Raşad oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Əskərov Asif Zöhrab oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Axundov Kamal Mirzağa oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 29 iyun 2022-ci il

**“Lənkəran rayonu Hirkan qəsəbə məscidi” dini icması**

Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il

Qeydiyyat №-si: 100116C – 717

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Bayramov Zülfüqar Nəbi oğlu, Ağayev Nurəddin Babulla oğlu, Əzizov Xanverdi Rəcəbəli oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Həsənov Elşad Barat oğlu, Muradova Gülşən Əliabbas qızı, Ağayev Fail Fərzi oğlu, Abasov Sərdar Məzahir oğlu, Cahangirova Rəhimə Mirverdi qızı, Səlimov Bəhruz Fitat oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 07 iyul 2022-ci il

**“Şəki rayonu Suçma kənd məscidi” dini icması**

Qeydiyyat tarixi: 20 aprel 2016-cı il

Qeydiyyat №-si: 100116C –636

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Məmmədov Emin Qurban oğlu, Abdullayeva Xəssə Aslan qızı, Bünyadov Abdulla Məsim oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Yusifov Yusif Şəmsi oğlu, Yusifov Fizuli Şəmsi oğlu, Məmmədov Elgün Telman oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 07 iyul 2022-ci il

**“Şəki rayonu Oxud kənd məscidi” dini icması**

Qeydiyyat tarixi: 30 mart 2010-cu il

Qeydiyyat №-si: 100110A2 – 264

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Kərimov Rəhim Bayram oğlu, Məmmədov Hidayət Məmməd oğlu, Əsgərov İspəndiyar Baxtiyar oğlu, Mustafayev Şəfayət Soltan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

İsayev Xəzər Rəşad oğlu, Mahmudov Babək Mahmud oğlu, Mahmudov Bəhruz Mahmud oğlu, Əsgərov Dursun Əli oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 07 iyul 2022-ci il

**“Şəki rayonu Aydınbulaq kəndi “Hacı Mir Ələkbərağa” məscidi” dini icması**

Qeydiyyat tarixi: 06 yanvar 2011-ci il

Qeydiyyat №-si: 100110A4 – 511

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Abdurahmanov Qəhrəman Məmməd oğlu, Bayraməliyev Siyahbər Cavad oğlu, Şirinov Səxavət Şirin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Səfərli Səməd Bəhrəm oğlu, Mirzəyev Möhtərəm Şəmşir oğlu, Şirinov Elnur Şirin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 19 iyul 2022-ci il

CƏMİYYƏT və DİN
№ 07 (369) İYUL 2022-ci il

## AYASOFYA MƏSCİDİNİ 6,5 MİLYONDAN ÇOX TURİST ZİYARƏT EDİB



Türkiyənin, o cümlədən dünyanın ən qədim tarixi abidələrindən biri olan Ayasofya məscidi çoxsaylı yerli və xarici turistləri cəlb etməyə davam edir.

Ayasofya İstanbula gələn turistlərin ilk dayanacaq yerinə çevrilib. Məscidə gələnlərin bir qismi burada namaz qılarkən, bir qismi də ölçüsü və funksionallığı ilə dünya sənət aləmində mühüm yer tutan bu tikili ilə yaxından tanış olur.

Dünyanın hər yerindən gələn qonaqların günü-gündən Ayasofyaya marağının artdığını qeyd edən İstanbul Müfti müavini Ahmed Aktürkoğlu bildirib ki, Ayasofya məscidi ikinci ildönümündə artıq 6,5 milyondan çox ziyarətçiyə ev sahibliyi edib.

Xatırladaq ki, 2020-ci il iyulun 24-də 86 ildən sonra cümə namazı ilə məscid olaraq ibadətə açılan Ayasofya 1985-ci ildə UNESCO-nun Dünya İrs Siyahısına daxil edilib. Məbəd 1934-2020-ci illər arasında muzey olaraq fəaliyyət göstərib.

## YAPONİYA ALİMLƏRİ MARS VƏ AYDA YAŞAMAQ ÜÇÜN TİKİLİ YARATMAQ İSTƏYİRLƏR



Yaponiyanın qərbində yerləşən Kioto Universitetinin alimləri və "Kajima" tikinti şirkətinin mütəxəssisləri gələcəkdə insanların Marsda və Ayda yaşamasına imkan verəcək tikili yaratmaq niyyətindədirlər.

Bu barədə NHK telekanalı məlumat yayıb.

Bildirilir ki, araşdırma qrupu uzunmüddətli həyat üçün yararlı şərait olacaq Yerin qravitasiyasına malik tikili yaratmağı planlaşdırır. Həmin problemi həll etmək üçün tikilinin öz oxu ətrafında fırlanması və bunun nəticəsində əmələ gələn mərkəzəqaçma qüvvəsinin hesabına qravitasiyanın yaradılması nəzərdə tutulur.

Qeyd edilir ki, tikilinin təqribən 200-400 metr hündürlüyündə, 200 metr diametrində olması planlaşdırılır. Tikinti işləri zamanı yalnız Yerdən aparılan deyil, həmçinin Marsın və Ayın səthində olan ehtiyatlardan istifadə olunacağı bildirilir.

## ZƏİF EŞİDƏNLƏR ÜÇÜN SƏSİN VİZUALLAŞDIRILMASINA BAŞLANILIB




Yaponiyada çox şirkət zəif eşidənlərə yardım etmək məqsədilə səsin vizuallaşdırılmasına başlayıb.

Şərqi Yaponiya dəmir yolu şirkəti Tokio şəhərətrafı nəqliyyat mərkəzi hesab edilən "Ueno" stansiyasında bu sistemin sınaqlarına başlayıb. Həmin sistem süni intellektdən istifadə edərək yaxınlaşan qatarların səsini və ictimai elanları təhlil edir. Bundan sonra həmin səslər platforma üzərində quraşdırılmış ekrana transkripsiya olunur.

Sistemin müəllifi, elektronika istehsalı sahəsində tanınmış "Fujitsu" şirkətinin nümayəndəsi Honda Tatsuya bildirib ki, sistemin hazırlanması zamanı ən çox müzakirə edilən məsələ yaddaqalan qrafikanın seçilməsi idi: "Bu məqsədlə eşitmə problemi olan dizayner dəvət edilib. Ümid edirik ki, layihə zəif eşidən şəxslərin məlumatlanmasında mühüm rol oynayacaq".

Layihə ilə bağlı sınaqların cari ilin dekabrınadək davam edəcəyi qeyd edilir. Həmin sistemin digər stansiyalarda da quraşdırılması və onunla bağlı rəylərin toplanması nəzərdə tutulur.

## Bakı və Abşeron üzrə namaz vaxtları (Avqust - 2022)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 04:02 | 05:37 | 12:47 | 17:48 | 20:11 | 21:24 |
| 2 | 04:03 | 05:38 | 12:47 | 17:48 | 20:10 | 21:23 |
| 3 | 04:04 | 05:39 | 12:47 | 17:47 | 20:09 | 21:21 |
| 4 | 04:06 | 05:40 | 12:47 | 17:46 | 20:08 | 21:20 |
| 5 | 04:07 | 05:41 | 12:46 | 17:46 | 20:07 | 21:18 |
| 6 | 04:09 | 05:42 | 12:46 | 17:45 | 20:06 | 21:17 |
| 7 | 04:10 | 05:43 | 12:46 | 17:44 | 20:04 | 21:15 |
| 8 | 04:11 | 05:44 | 12:46 | 17:43 | 20:03 | 21:13 |
| 9 | 04:13 | 05:45 | 12:46 | 17:43 | 20:02 | 21:12 |
| 10 | 04:14 | 05:46 | 12:46 | 17:42 | 20:00 | 21:10 |
| 11 | 04:15 | 05:47 | 12:46 | 17:41 | 19:59 | 21:09 |
| 12 | 04:17 | 05:48 | 12:46 | 17:40 | 19:58 | 21:07 |
| 13 | 04:18 | 05:49 | 12:45 | 17:39 | 19:56 | 21:05 |
| 14 | 04:19 | 05:50 | 12:45 | 17:38 | 19:55 | 21:04 |
| 15 | 04:21 | 05:51 | 12:45 | 17:37 | 19:54 | 21:02 |
| 16 | 04:22 | 05:52 | 12:45 | 17:36 | 19:52 | 21:00 |
| 17 | 04:23 | 05:53 | 12:45 | 17:36 | 19:51 | 20:59 |
| 18 | 04:25 | 05:54 | 12:44 | 17:35 | 19:49 | 20:57 |
| 19 | 04:26 | 05:55 | 12:44 | 17:34 | 19:48 | 20:55 |
| 20 | 04:27 | 05:56 | 12:44 | 17:33 | 19:46 | 20:53 |
| 21 | 04:29 | 05:57 | 12:44 | 17:31 | 19:45 | 20:52 |
| 22 | 04:30 | 05:58 | 12:43 | 17:30 | 19:43 | 20:50 |
| 23 | 04:31 | 05:59 | 12:43 | 17:29 | 19:42 | 20:48 |
| 24 | 04:33 | 06:00 | 12:43 | 17:28 | 19:40 | 20:46 |
| 25 | 04:34 | 06:00 | 12:43 | 17:27 | 19:39 | 20:44 |
| 26 | 04:35 | 06:01 | 12:42 | 17:26 | 19:37 | 20:43 |
| 27 | 04:36 | 06:02 | 12:42 | 17:25 | 19:36 | 20:41 |
| 28 | 04:38 | 06:03 | 12:42 | 17:24 | 19:34 | 20:39 |
| 29 | 04:39 | 06:04 | 12:41 | 17:23 | 19:33 | 20:37 |
| 30 | 04:40 | 06:05 | 12:41 | 17:21 | 19:31 | 20:35 |
| 31 | 04:41 | 06:06 | 12:41 | 17:20 | 19:29 | 20:34 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə)*:** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4**, Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5**, Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6**, Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8**, Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

*• Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## VENESİYAYA GÜNDƏLİK SƏYAHƏT EDƏN TURİSTLƏRDƏN GİRİŞ HAQQI ALINACAQ



2023-cü ildən etibarən İtaliyanın Venesiya şəhərinə gündəlik səyahət etmək istəyən turistlər giriş haqqı ödəyərək şəhəri ziyarət edə biləcəklər.

Bu barədə Venesiya Şəhər Şurası qərar qəbul edib. Bildirilir ki, gələn il yanvarın 16-dan etibarən Venesiyaya birgünlük səfər edəcək turistlərdən 3-10 avro arasında giriş haqqı alınmasına qərar verilib. Yanvar ayında qüvvəyə minəcək qaydalar çərçivəsində şəhərə gündəlik səyahət etmək istəyənlər giriş haqqını çoxkanallı platforma vasitəsilə ödəyərək "QR kod" alacaqlar. Giriş haqqı şəhərdəki sıxlıqdan və rezervasiyaların sayından asılı olaraq dəyişəcək. Şəhərdə sıxlıq hədləri isə hələlik müəyyən edilməyib.

Məlumata görə, qaydalar şəhərdə gecələyən turistlər, 6 yaşınadək uşaqlar, otellərdə qalanlar, yerli sakinlərə qonaq qismində gələnlər və tələbələrə şamil olunmayacaq.

Xatırladaq ki, 2019-cu ilin oktyabrında Venesiya Şəhər Şurası 2020-ci ilin yayından etibarən şəhərə birgünlük gələnlər üçün giriş haqqının alınmasına qərar verməşdi. Lakin sözügedən qaydalar 2020-ci ildə COVID-19 pandemiyası səbəbindən tətbiq olunmamışdı.

**Yadigar söz**

***Ümummilli Lider Heydər Əliyev***

*Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir.*

Baş redaktor **Səyyad ARAN**

**Redaksiya şurası:**
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV
Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894